www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6 yanvar 2018-ci il Şənbə № 2 (6891) Qiymətı 60 qəpik

**Xəbər**

## Maşın bazarında kəskin bahalaşma gözlənilir

yazısı səh.13-də

**Gündəm**

### Bəzi restoranlarda tütün qadağasına məhəl qoyulmur



Bir çoxları yeni qanunun tələblərinə əməl etmir

yazısı səh.12-də

### Partiyalar seçkiyə və qurultaya hazırlaşır

yazısı səh.4-də

### Ermənistan işğalla inkişaf arasında - ölkə əhalisi sürətlə yoxsullaşır

yazısı səh.11-də

### Neft Fondunun "uzunömürlü" xərcləri

yazısı səh.7-də

### Rusiya Azərbaycanda Türkiyə pomidoru axtarır

yazısı səh.13-də

### Manat bu il daha da möhkəmlənəcək - ekspert rəyi

yazısı səh.10-da

### ABŞ-ın İran hədəfi - Vaşinqton "kartları" açır

yazısı səh.9-da

### Professorun evindən oğurluq edən qadının cəzası 14 il icra olunmayacaq - səbəb...

yazısı səh.14-də

### Jurnalistin Trampla bağlı kitabı ABŞ prezidentini bitirir

yazısı səh.3-də

### Bakıda 22 yaşlı oğlan dəm qazından boğuldu

yazısı səh.14-də

### "Dəmirbank"da pulu olanlar nə etsin...

yazısı səh.12-də

### Limitə görə qaz sayğacları nə zaman sıfırlanır?

yazısı səh.15-də

# ERMƏNİ KONYAKI VƏ RUS SİLAHININ ZORƏN "DOSTLUĞU" - PUTİN LAYİHƏSİNİN CANI BAKIDADIR

Azərbaycanla Rusiyanın bundan artıq yaxınlaşması bu il də mümkün olmayacaq, əgər...; **Rusiyanın nüfuzlu nəşri:** "Sərkisyan iki stul"da oturmaqla..."



yazısı səh.8-də

# İrandakı xaosu türklər önlədi - Tehrana böyük yaxşılıq

Azərbaycan, Türkiyə və Güney Azərbaycan Tehrana özünü xilas şansı verdi; bəs qarşılığı nə olacaq?..

yazısı səh.3-də



*Səməd Seyidov:*

**"Azərbaycan nümayəndə heyətinin tərkibində dəyişiklik rotasiya qaydasında edilib"**

yazısı səh.2-də



*Qabil Hüseynli:*

**"Müxalifətdə kiminsə iqtidara ciddi rəqib olacağından danışmaq mümkün deyil"**

yazısı səh.4-də



*Hafiz Hacıyev:*

**"Dənizi zəbt edən oliqarxlar kvotadan 3-4 dəfə çox balıq ovlayırlar, amma.."**

yazısı səh.15-də

YENİ MÜSAVAT
N 2 (6891) 6 yanvar 2018

# "Azərbaycan nümayəndə heyətinin tərkibində dəyişiklik rotasiya qaydasında edilib" - Səməd Seyidov



**"Avropa Şurası Parlament Assambleyasının yanvar sessiyasına Azərbaycan nümayəndə heyəti yenilənmiş tərkibdə gedəcək".**

APA-nın məlumatına görə, bunu Milli Məclisin Avropa Şurası Parlament Assambleyasında (AŞPA) nümayəndə heyətinin rəhbəri Səməd Seyidov deyib.

O bildirib ki, təşkilata üzv ölkələr AŞPA-nın qış sessiyasına nümayəndə heyətlərinin yeniləşmiş tərkibi ilə qatılacaq.

"Bu, AŞPA-ya üzv dövlətlərdə qəbul olunmuş normal prosesdir. Azərbaycan nümayəndə heyətinin tərkibində dəyişiklik də rotasiya qaydasında edilib. Belə ki, deputatlardan Ülviyyə Ağayeva, Elşad Həsənov və Asim Mollazadə yeni tərkibə daxil ediliblər.

Nümayəndə heyətinin keçmiş üzvləri Elxan Süleymanov, Elşən Musayev və Müslüm Məmmədov parlamentin beynəlxalq əlaqələrinin digər istiqamətlərində fəaliyyətlərini davam etdirəcəklər", - deyə Səməd Seyidov qeyd edib.



# "İctimai rezonansa səbəb olan ağır cinayətlər törədən şəxslər ifşa olunub" - Zakir Qaralov

**Ötən il respublikada ictimai rezonansa səbəb olan ağır cinayətləri törədən şəxslər ifşa olunub. APA-nın Baş Prokurorluğun saytına istinadən verdiyi məlumata görə, bu barədə baş prokuror Zakir Qaralov Baş Prokurorluqda 2017-ci ildə prokurorluq orqanları tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsində bildirib.**

O qeyd edib ki, hesabat dövründə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi tərəfindən respublikada ictimai rezonansa səbəb olmuş bir sıra cinayətlərin, o cümlədən qəsdən adam öldürmə cinayətlərinin keyfiyyətli istintaq edilməsi və bütün təqsirli şəxslərin ifşa olunaraq məhkəmə məsuliyyətinə verilməsi ilə yanaşı, cinayəti doğuran səbəb və şəraitlərin aşkarlanaraq qabaqlayıcı və profilaktiki tədbirlərin görülməsi təmin edilib: "Ötən il digər hüquq-mühafizə orqanları ilə, ilk növbədə Daxili İşlər Nazirliyi ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunub. Prokurorluq orqanlarının səyləri ilk növbədə prezident İlham Əliyevin göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, prokurorluqda islahatların yeni məzmunda davam etdirilməsinə, "Prokurorluq haqqında" Qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılmasına, mövcud çatışmazlıqlar və neqativ təzahürlərin təxirəsalınmadan aradan qaldırılmasına yönəldilib".

**Z.Qaralov həmçinin qeyd edib ki, prokurorluq orqanları tərəfindən ötən dövrlərdə olduğu kimi, 2017-ci ildə də ölkədə korrupsiya və rüşvətxorluğa qarşı kəsərli mübarizə davam etdirilib.**

# Yalandan "bomba var" xəbəri verənlər tutuldu

**Yeni ilin ilk günlərində paytaxtın müxtəlif məkanlarında bomba qoyulması barədə DİN-in "102" Xidmətinə və ərazi polis orqanına iki məlumat daxil olub. Həmin günlərdə gücləndirilmiş iş rejimində xidmət aparan daxili işlər orqanları əməkdaşlarının peşəkarlıqla həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində bilərəkdən yalan məlumatlar verən şəxslər "isti izlər"lə müəyyən edilərək məsuliyyətə cəlb olunublar.**

Daxili İşlər Nazirliyindən musavat.com-a verilən məlumata görə, yanvarın 2-də saat 21.40 radələrində naməlum şəxs Səbail rayonu ərazisindəki mehmanxanalardan birinə bomba qoyulması barədə məlumat verib.

Digər hüquq-mühafizə orqanları ilə birlikdə təxirəsalınmaz tədbirlər həyata keçirilib, lakin məlumat təsdiqini tapmayıb.

Bakı Şəhər Baş Polis İdarəsi və Səbail Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə bomba qoyulması barədə yalan məlumat verməkdə şübhəli bilinən Bakı şəhər sakini, 24 yaşlı Elmar Qasımov müəyyən edilərək saxlanılıb.

Yanvarın 3-də isə saat 16.28-də DİN-in «102» Xidmətinə zəng edən naməlum şəxs paytaxtın Nizami rayonu ərazisində yerləşən anbarda bomba olması barədə xəbər verib.

# Bakı sakini icarəyə götürdüyü avtomobili satdı

**Bakı sakini üzləşdiyi dələduzluq əməli ilə bağlı polisə müraciət edib. Lent.az xəbər verir ki, 1954-cü il təvəllüdlü Dünyamalıyev Nizami Xəlil oğlu polisə müraciət edərək bildirib ki, keçən ilin aprelində tanışı Nəzərov Nəriman Aslan oğlu onun "Brilliance 530" markalı, 01 AB 047 dövlət qeydiyyat nişanlı avtomobilini icarəyə götürüb.**

Müəyyən müddətdən sonra avtomobilin icarəyə verilməsi ilə bağlı 1180 manat borc yaranıb və icarədar avtomobilin və pulun verilməsini tələb edib. Lakin məlum olub ki, N.Nəzərov icarəyə götürdüyü avtomobili başqa şəxsə satıb.

Nizami Dünyamalıyev ona dəyən ziyanın ödənilməsini tələb edib.

Araşdırma aparılır.



# Ərdoğan Fransaya getdi

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Fransada rəsmi səfərə gedib.**

R.T.Ərdoğan Yelisey sarayında rəsmi mərasimlə qarşılanıb.

Prezidentlərin və nümayəndə heyətlərinin iştirakı ilə rəsmi nahar yeməyindən sonra Fransa Prezidenti Emmanuel Makron və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında təkbətək görüş keçirilib.

Tərəflər daha sonra birgə mətbuat konfransı keçirərək jurnalistlərin suallarını cavablandırıblar.

# Gəncədə ana qeysəriyyə əməliyyatından sonra ölüb

**Gəncədə ana qeysəriyyə əməliyyatından sonra ölüb. APA-nın məlumatına görə, hadisə şəhərdə olan özəl xəstəxanaların birində baş verib.**

Şəhər sakini, 1992-ci il təvəllüdlü Nəsibova Nigar Fəxrəddin qızı qeysəriyyə yolu ilə uşaq dünyaya gətirib. Əməliyyatdan sonra ananın vəziyyəti pisləşib. Bir neçə gün müalicə alsa da, N. Nəsibovanı xilas etmək mümkün olmayıb.

Yeni doğulan körpə sağ qalıb. Məlumata görə, bu, N.Nəsibovanın dünyaya gətirdiyi ikinci övladdır.

**Faktla bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır.**



# 104 yaşlı çeçen qarını Kərbəla adı ilə Gədəbəyə göndərdilər

**Çeçenistan sakini olan 104 yaşlı qarı Yeni il ərəfəsində Azərbaycanın Gədəbəy rayonunda küçədə soyuqdan donarkən tapılıb və Bakıda sığınacağa yerləşdirilib. Musavat.com xəbər verir ki, bu barədə virtualaz.org saytına qadına sığınacaq verən "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyindən məlumat veriblər.**

Pasport məlumatlarına görə düz 104 yaşı olan Mədinə Əliyevanı Gədəbəy rayon Polis İdarəsinin əməkdaşları küçədə soyuqdan donmuş halda tapıblar. 1 əsrdən çox yaşamış qadına Gədəbəydə ilkin tibbi yardım göstərilib, isti paltar, yemək verilib. Yanvarın 1-də isə onu Bakıya - "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sığınacağına göndəriblər.

İctimai birliyin rəhbəri Mehriban Zeynalova deyib ki, sənədlərində Mədinə Əliyevanın 1914-cü ildə doğulduğu qeyd edilir. Qadın Rusiya vətəndaşıdır, Çeçenistanda qeydiyyatdadır, lakin Azərbaycan dilində sərbəst danışır. O, Gədəbəyə necə gəldiyini xatırlamır.

Mədinə Əliyeva çətin həyat sürdüyünü deyir, bildirdiyinə görə sovet dövründə sürgün edilib, övladı olmayıb. "Anam çeçen, atam ərəbdir. Məkkədə doğulub, böyümüşəm. Sonradan anam məni götürərək Çeçenistana qayıdıb. Oradan isə sürgün edilmişik", - Mədinə Əliyeva özü barədə bunları deyib.

Danışdıqlarına əsasən Çeçenistanda Mədinə Əliyevaya atasının dostu sahib çıxıb. 15 yaşında ərə verilib. Lakin övladı olmayıb, həyat yoldaşı dünyasını dəyişəndən sonra alverlə dolanıb. Əliyeva deyir ki, Azərbaycandan mal alaraq Çeçenistanda satırmış. Son 2 ilə qədər Azərbaycana mütəmadi gəlib-gedib, dilimizi də elə alverçilərdən öyrənib.

Mehriban Zeynalova bildirib ki, Mədinə Əliyeva Çeçenistandan Kərbəla ziyarətinə getmək üçün yola çıxdığını, lakin 3 qadın tərəfindən aldadılaraq Azərbaycana gətirildiyini deyir. Bildirir ki, 200 dollar pulu, sənədləri və qulağındakı qızıl sırğalar oğurlanıb.

"Mədinə Əliyeva izahatında göstərib ki, qulaqlarındakı sırğa, pul və sənədlərini 3 qadın götürüb. Onu Gədəbəyə niyə apardıqları da bəlli deyil. Hazırda araşdırma aparılır", - M.Zeynalova əlavə edib.

M.Əliyeva yerimək də çətinlik çəkir, kömək olmadan yemək yeyə, özünə baxa bilmir. Buna baxmayaraq, Çeçenistanda evi olduğunu, geri qayıtmaq istədiyini deyib. Buna görə də, o, Bakının Xətai rayon ərazisində yerləşən Tereza Ana sığınacağına köçürülüb. Onun Çeçenistana köçürülüb-köçürülməyəcəyi yaxın günlərdə bəlli olacaq.



# İvanka Trampı heyran qoyan azərbaycanlı Reyhana vəzifə verildi

**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov Hindistanda keçirilən Qlobal Sahibkarlıq Sammitində yağış suyundan enerji alınmasına imkan verən "Rainenergy" qurğusu ilə Azərbaycanı təmsil etmiş Reyhan Camalova ilə görüşüb.**

Agentlikdən BAKU.WS-ə verilən məlumata görə, görüş zamanı məktəb və universitetlərdə innovasiyaların təşviqi, ideyaların toplanılması və gənclərin, xüsusilə məktəblilərin bu prosesə cəlb edilməsi istiqamətində işlərə dair müzakirələr aparılıb.

Həmçinin Reyhan Camalova gənc innovativ məktəbli kimi Dövlət Agentliyinin İdeya müvəkkili vəzifəsinə təyin edilib. Belə ki, ona 2 il ərzində Dövlət Agentliyində ictimai əsaslarla fəaliyyət göstərməsi, innovativ ideyaları olan istedadlı gənclərin layihələrini üzə çıxarması və reallaşdırmasına dəstək göstərməsi üçün xidməti vəsiqə təqdim edilib.

# AZAL-ın bütün reyslərinə qeydiyyat uçuşa 60 dəqiqə qalmış bağlanacaq

**2018-ci il yanvarın 15-dən etibarən "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) bütün reyslərinə qeydiyyat bütün aeroportlarda uçuşa 60 dəqiqə qalmış bağlanacaq.**

AZAL-dan "APA-Economics"ə verilən məlumata görə, eyni zamanda, qeydiyyat uçuşa 3 saat qalmış açılacaq.

Məlumata görə, AZAL sərnişinlərin hava limanında qeydiyyat üçün öncədən gəlməyini xahiş edir: "Həmçinin, sərnişinlər saytda pulsuz onlayn qeydiyyat xidmətindən istifadə edə, baqaj olduqda isə onu "Baggage Dropoff" ekspress-masasında təhvil verə bilərlər".

**Qeyd edək ki, hazırda AZAL-da qeydiyyat uçuşa 2 saat qalmış başlanır. Bütün reyslərə qeydiyyat isə 40 dəqiqə qalmış bağlanır. Bu qayda "Buta Airways" uçuşlarına da şamil ediləcək.**

YENİ MÜSAVAT
N 2 (6891) 6 yanvar 2018

**Qonşu İranda ABŞ və onun regiondakı müttəfiqlərinin dəstək verdiyi qarışıqlıq, daha doğrusu, hakim rejimə qarşı qiyam cəhdi fiasko olmuş sayıla bilər. Yeni il ərəfəsi başlayan xaos artıq səngiməyə üz tutub.**



# İrandakı xaosu türklər önlədi - Tehrana böyük yaxşılıq

## Azərbaycan, Türkiyə və Güney Azərbaycan Tehrana özünü xilas şansı verdi; bəs qarşılığı nə olacaq?..

Lakin iğtişaşlarla müşayiət olunan etirazlar səngisə də, nümayişlər özündən sonra cavab tələb edən bir neçə ciddi sual saxlayıb. Onlardan biri və birincisi təbii ki, baş verən olaylarda “xarici iz”lə bağlıdır. İranın siyasi və dini hakimiyyətini yetərincə qəfil yaxalayan bu hadisələr həmçinin, Güney amilinin passiv olması ilə diqqət çəkdi.

*****

Yada salaq ki, insanlar formal olaraq, gündəlik tələbat mallarının bahalaşması motivi ilə küçəyə çıxmışdılar. Lakin iqtisadi tələblərlə başlayan etirazlar qəfildən siyasi çalar aldı. Nümayişçilər hətta dekabrın 28-də hərbi və polis məntəqələrini ələ keçirməyə çalışdılar ki, bu da başqa suallar yaratdı.

Rəsmi məlumata görə, Tehran, Məşhəd, İsfahan və Rəştdə təxminən 42 min adam küçələrə çıxıb. Prezident Həsən Ruhani, İran rəhbərliyi öncə dinc etirazları ölkə vətəndaşlarının konstitusion hüquq kimi dəyərləndirsə də, az sonra ABŞ və onun bölgədəki müttəfiqlərini - İsraili və Səudiyyə Ərəbistanını İranı qarışdırmaq cəhdində suçladı. Paralel surətdə nümayişləri yatırtmalı oldu: hazırda hadisələrlə bağlı 450 nəfər həbsə alınıb. Onların ən sərt şəkildə cəzalandırılacağının anonsu da artıq verilib. Böyük ehtimalla, saxlanılanların ifadələri İrandakı dekabr-yanvar iğtişaşlarında aparıcı motivə güclü işıq sala biləcək.

*****

Qonşu İranda dinclik və sabitliyin qısa zamanda bərqərar olunmasında şəkk-şübhəsiz, həlledici rolu iki türkdilli qonşu dövlət - Türkiyə və Azərbaycan, bir də İrandakı böyük türkdilli kəsim - Güney Azərbaycan əhalisinin, onun öncüllərinin proseslərə təmkinli, strateji uzaqgörənliklə yanaşması oynadı.

Ondan başlayaq ki, rəsmi Bakı və rəsmi Ankara ilk gündən hadisələri İranın daxili işi hesab eləməklə yanaşdı, xarici müdaxilənin əleyhinə çıxdı, İran daxilindəki türk amilinin hərəkətə gəlməsinə nədən olmadı, hətta əksinə, Güney türklərinin tarazlı və düzgün mövqe tutmasına yardımçı oldu. Bu, İran rəhbərliyi üçün çox mühüm idi. Hər halda, yaxın tarix göstərir ki, Təbriz, Ərdəbil, Urmiyənin ayağa durmadığı hərəkatlar qalibiyyətlə bitmir.

Güney isə sağdan-soldan, xaricidən təxribatçı çağırışlara rəğmən, buna getmədi. Düz də elədi, ən azı ona görə ki, xarici güclərin maraq dairəsində hazırda heç də “Güney Azərbaycan” adlı dövlətin yaradılması yox, neft-qazla zəngin İranı tam nəzarət altına almaq hədəfi var. Oxşar ssenarilər, əksər ekspertlərə görə, qardaş Türkiyəyə qarşı da mövcuddur və 2016-cı ilin iyul hərbi çevriliş cəhdi onlardan biri idi...

*****

Qayıdaq İrana. Məsələ ondadır ki, məhz İrandakı qarışıqlıqla bağlı Türkiyə və Azərbaycan rəsmi mövqe ortaya qoyandan, İrandakı qanuni hakimiyyəti müdafiə edəndən və konstitusiya çevrilişi cəhdini pisləyəndən sonra İranın güc strukturları situasiyanı nəzarət altına ala bildilər - hərçənd, etirazların tam səngidiyini söyləmək bir az tez olar.

Xüsusən də Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan baş verənlərin “nəbzini” düzgün tutaraq mövqe sərgiləməsi, həmkarı Ruhaniyə telefon açması öz işini gördü. Türkiyə liderinin hadisələr fonunda söylədiyi “İrandakı rejim bütün qüsurlarına rəğmən, hər halda bölgədə sabitlik faktorudur, onun yerini qərbyönlü avantüristlər tuta bilər ki, bu da ölkəni Suriyadakından da üzücü və miqyaslı vətəndaş müharibəsinə çəkər” sözləri çox önəmli idi.

İndi qalır Azərbaycan, Türkiyə və Güney Azərbaycanın rəsmi Tehrana, İran hakimiyyətinə verdiyi belə bir özünü xilas şansının, böyük yaxşılığın ölkə rəhbərliyi, Tehran tərəfindən doğru və ədalətli dəyərləndirməsi. İnanmaq istərdik ki, son olaylar Tehrana dost-düşmənlərin ünvanını daha dəqiq göstərəcək.

**Buna da ümid eləmək istərdik ki, İranda vaxtaşırı fars KİV-ləri tərəfindən aşağılanan və türkofobik münasibətlə üzləşən Güney toplumunun konstitusion haqlarına, nəhayət, İran rəhbərliyi daha sayğılı yanaşacaq. Bölgənin mədəni, sosial-iqtisadi problemlərinə münasibətdə daha həssas olacaq. Dağlıq Qarabağ məsələsində müsəlman qonşumuzdan çoxdan umduğumuz, Türkiyə kimi ədalətli yanaşma də öz yerində...**

❑ **“Yeni Müsavat”ın analitik xidməti**

# Jurnalistin Trampla bağlı kitabı ABŞ prezidentini bitirir

## **Elçin Mirzəbəyli:** “Trampı bitirə biləcək kompromatların sayı o qədər çoxdur ki...”

## **Əhəd Məmmədli:** “Kitabın çapı Trampın impiçmentini yaxınlaşdıra bilər”

**Amerika prezidenti Donald Tramp haqqında işıq üzü görən kitab dünya boyunca müzakirələrə səbəb olub. Şok iddialarla dolu “Atəş və qəzəb: Trampın Ağ Evində” (Fire and Fury: Inside the Trump White House) kitabı haqqında “The Guardian” yazır ki, Trampın vəkilləri kitabın yayımını dayandırmaq üçün baş sındırırlar. Kitabın müəllifi, jurnalist Maykl Wolffdur.**

Ağ Evin kitabın çap edilməməsi ilə bağlı göstərişinin ardından müəllifin çapın vaxtını irəli çəkməsi Trampın işini daha da qəlizləşdirib. Kitabda tək Trampın son bir ildəki prezidentlik fəaliyyətinin deyil, eyni zamanda, şəxsi həyatı ilə bağlı da məlumatların yer alması, qızı İvanka Trampın ilk dəfə qadın prezident kimi ABŞ tarixinə düşmək iddiasının olması barədə məlumatların yer alması narahatlıqları artırıb.

Siyasi ekspertlər Trampın prezidentliyi dövründə bu kitabın onun fəaliyyətinə ən ağır zərbə vuracağını, nüfuzunu ciddi zədələyəcəyini düşünürlər.

**Politoloq Elçin Mirzəbəyli** Tramp Administrasiyasının narahatçılığının başadüşülən olduğunu söylədi: “Volfun "Atəş və Qəzəb: Tramp Ağ Evinin içindən" adlı kitabını hələ nəşr olunmamışdan öncə populyarlaşdıran ABŞ prezidentinin baş strateqi Stiv Bannondan götürülən müsahibədir. Müsahibədə Trampın yaxın ətrafının Rusiya ilə əlaqələri barədə fikirlərin səsləndirilməsi və bununla bağlı mediaya sızdırılan məqamlar ciddi rezonans doğurub. Tramp və komandası nəyin bahasına olursa-olsun kitabın nəşrini dayandırmağa çalışır. ABŞ prezidentinin və komandasının kitabla bağlı ciddi narahatlıq keçirdiyi açıq-aşkar nəzərə çarpır. Bu isə sübuta yetirir ki, “Atəş və Qəzəb: Tramp Ağ Evinin içindən” kitabı təkcə gəlir əldə etmək üçün vasitə və ya qarayaxma kampaniyasının atributu deyil, ciddi siyasi aksiyadır. Kitabda etik normalara uyğun gəlməyən mülahizələrin yer alması barədə ABŞ KİV-nin təqdim etdiyi məqamlar hələ öz təsdiqini tapmayıb. Kitab hələ nəşr olunmadığı üçün bu barədə danışmağı da doğru saymıram. Ola bilsin ki, bütün bunlar marketinq elementidir. Digər tərəfdən belə nəşrlər ABŞ cəmiyyəti üçün yeni hadisə deyil. Bunun təsdiqi üçün ABŞ-ın sabiq prezidenti Bill Klintonla Monika Levinski ətrafında baş verənləri və bu barədə yazılan kitabları xatırlamaq yetərlidir. Məsələyə bizim ictimai dəyərlər müstəvisindən yanaşsaq, şəxsi həyata müdaxilə etik deyil və cəmiyyətə neqativ mesajlar verir.


Donald Tramp

Peşə etikası baxımından da bu doğru deyil. Trampı bitirə biləcək kompramatların sayı o qədər çoxdur ki, bu kitab onların yanında heç nədir. Kitabın ictimai rezonans doğurmasının səbəbi isə kütləvi informasiya vasitələridir. Trampın hətta yeni il mesajında da medianın ünvanına sərt fikirlər səsləndirməsi əks effektini verdi. Bu kitab da, kitabın mediadakı təbliğatı da KİV-in Trampa Yeni il, Milad hədiyyəsidir. Bu dəfə Santa Klaus rolunu Volfa tapşırıblar. İstənilən şəxsin prezidentliyə namizədliyini irəli sürməsi və bu barədə düşünməsində qanunsuz heç nə yoxdur. İvanka Tramp da ABŞ vətəndaşıdır və o da hamı kimi konstitusion hüququndan istifadə edə bilər. Bütün hallarda son sözü seçici deyir. Bu kitabda Rusiyanın izinin olub-olmadığını deyə bilməyərəm. Mənə elə gəlir ki, bəzən Rusiyanın rolu fantastik dərəcədə qabardılır. Amerikanın gözdən salınmasına gəldikdə isə bu bir az sentemental yanaşmadır. Amerika güc dövlətidir, Rusiyadan daha çox informasiya resurslarına, təbliğat imkanlarına sahibdir. Bu gün dünyanı güc idarə edir. İnformasiya texnologiyaları isə mövcud olan gücün təqdimatı üçün vasitədir”.

**“Sivilizasiyalar və konfliktlər” Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli** hesab edir ki, növbəti impiçment təhlükəsi Trampın qapısını döyür: “Bu kitab bir daha onu göstərir ki, bəlkə də ABŞ tarixində ilk dəfədir amerikan daxili elitalar bu qədər bir birlərinə qarşıdırlar və artıq qara piarın bütün etik normalarını keçiblər. Tramp Amerika prezidentidir, lakin bu fakt da onun rəqiblərini dayandırmır. Trampın rəqibləri onun özünə olmasa da, onun dünyada ölkələrini təmsil etdiyi statusuna da belə hörmət qoymurlar. O kitabda yazılanların heç olmasa 1/3 həqiqət olmasının qənaətindəyəm. Düşünmürəm bu kitab satışa çıxdıqdan sonra Tramp dərhal impiçmentə göndəriləcək, lakin növbəti impiçment təhlükəsi Trampın siyasi qapısını döyməkdədir. Əgər bu kitabda təhqir yoxdursa, onda burda qeyri-etik heç nə yoxdur, çünki siyasətçinin şəxsi həyatının, ailəsinin də daim nəzarətdə olması normal haldır. Necə deyərlər, siyasətçisənsə şəxsi həyatını unut. Bu kitabın nəşrinin çapını göründüyü kimi Tramp qarşısını ala bilməyəcək. Bu kitabın çapı Trampın impiçmentini yaxınlaşdıra bilər. Bu qara piarın arxasında Trampa qarşı çıxan köhnə elita durur. Fikrimcə, qarşıdurma Amerika qurulandan bu ölkəni idarə edən iki elita arasında gedir, anqlosaks elitası ilə yəhudi elitası arasında. Göründüyü kimi, ikincilər Trampı dəstəkləyir. Yəhudi lobbisi Amerikada nə qədər güclü olsa da, ABŞ ingilis dövlətidir. Düşünürəm ki, sonda Amerika tarixində misli görünməmiş bu qarşıdurmada anqlosaks elitası qalib gələcək. Trampın qızının gələcəkdə prezident olmaq istəməsi normal bir haldır. Hillarinin prezident olmaq istəməsi nə qədər normaldırsa, İvankanın da prezident olması o qədər normaldır. Burda qeyri adi heç nə yoxdur. Deyirlər ki, Tramp əlində burqerlə yatağa girir. Nə olsun, siz bilirsinizmi prezidentlik dövründə amerikalıların sevimli prezidenti Kennedi nə qədər çapqın olub? Mən hələ Bill Klinton ya kiçik Buşdan danışmıram. Kiçik Buşun savadsızlığından bütün dünya mediası danışırdı, amma bu, heç kimdə ajiotaj yaratmırdı. Planlı şəkildə Trampı qaralama piarı gedir. Hələ namizəd olarkən bütün qadınları fahişə adlandırmasına rəğmən Tramp prezident seçilə bildisə, bu kitabın qarşısında da tab gətirə bilər. Rusiya bu olaydan bəlkə də yararlanmağa çalışacaq, amma bunun arxasında Rusiya durmur, ABŞ-ın özü durur”.

❑ **Cavanşir ABBASLI**
❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 2 (6891) 6 yanvar 2018

**1 ay əvvəl, dekabrın 5-də Fazil Məmmədov qəfil vergilər naziri postundan çıxarıldı. 17 ilə yaxın vergilər naziri postunu tutan Fazil Məmmədovun bu şəkildə işdən çıxarılacağını heç kim, heç özü də gözləmirdi. Artıq 1 aydır ki, Fazil Məmmədov işsizdir.**

# Fazil Məmmədovun işsiz qaldığı 1 ay - ölkədən çıxardığı milyardları geri qaytaracaqmı?

## Sabiq nazirin iri sahibkarlara qarşı tətbiq etdiyi "dinmə, ver, vergisi"nə məruz qalanların siyahıları tutulur



Rəsmi olaraq onun işdən çıxarılmasının səhhəti ilə əlaqəli olduğu açıqlansa da, bu təqdimata inananlar azdır. Heç Fazil Məmmədovun özü də bu təqdimatla razılaşmır. O vəzifəsindən çıxarılandan 2 gün sonra bu xəbəri yalanlamışdı. Demişdi ki, iddia edildiyi kimi ağır xəstə deyil, az xəstədir. Yəni Fazil Məmmədov işində qalıb davam edə biləcəyi mesajını çatdırmışdı. İşdən çıxarıldığı ilk günlərdə Fazil Məmmədovun çevrəsi onun səfir göndəriləcəyi ilə bağlı xəbərlər yayması da onun xəstə olmadığını bir daha təsdiqləmək üçün ortaya atılan informasiyalardan idi.

*Fazil Məmmədov xəstə deyilsə, onun özü belə bu təqdimatla işdən çıxarılmasına qarşı olubsa, bəs bunun gerçək səbəbi nədir?*

Bu suala cavab axtaranların böyük əksəriyyəti Fazil Məmmədovun ölkədən iri məbləğdə - 4,5 milyard manat "qara pullar"ın çıxarılmasına görə işdən kənarlaşdırılması versiyasına daha çox inanırlar. Başqa sözlə desək, Fazil Məmmədovun maliyyə xəyanətinə görə işdən qovulub.

Ondan əvvəl maliyyə xəyanətində suçlu bilinən nazirlərin aqibətini yada salsaq, yaxın zamanlarda sabiq vergilər nazirini çox narahat günlərin gözlədiyini söyləyə bilərik.

Eldar Mahmudov 2015-ci ildə postunu itirəndən sonra onun qudası, Beynəlxalq Bankın sabiq prezidenti Cahangir Hacıyevlə birgə ölkədən 15 milyard dollar çıxarmaları haqda məlumatlar dolaşırdı. Cahangir Hacıyevin həbsindən bir müddət sonra onun 15 milyardlıq maliyyə xəyanətində ittiham etdilər. Düzdür, bu ittihamlar tam olaraq təsdiqini tapmadı. Bunun bir səbəbi kimi də ölkədən çıxarılan pulların rəsmi dövriyyədən kənar olması ilə izah olunur. Yəni həmin pullar "kölgə iqtisadiyyatından", iş adamlarından, ayrı-ayrı vəzifə adamlarından zorla, şantajla əldə edildiyindən ölkədən çıxarılmasını da təsdiqləmək çətinlik yaradıb. Faktiki isə Azərbaycanda əldə olunan bu pulların xaricdəki hesablara ötürülməsi haqda məlumatlar olub. Eldar Mahmudov işdən qovulandan sonra onun rəhbərliyi altında MTN-çilərin iş adamlarına qarşı talançılığı, vəzifə sahiblərinə qarşı quldurluq etmələri faktlarla, sübutlarla ortaya qoyulmaqla əvvəl yayılan məlumatlar təsdiqlənmiş oldu. Bu gün Eldar Mahmudovun yaxın çevrəsinə daxil olan generallar digər ittihamlarla yanaşı quldurluq, soyğunçuluq ittihamları ilə məhkumluq həyatı yaşayırlar. Zərərçəkənlər də əsasən iş adamlarıdır. Hazırda YAP-ın Yasamal təşkilatının sədri olan Tağı Əhmədov da Eldar Mahmudovun generallarına zor, hədə qarşılığında 3 milyon avro pul ödəməli olmuşdu. Bu da məhkəmədə təsdiqini tapdı.

Gələn məlumatlar onu deməyə əsas verir ki, Fazil Məmmədovun komandasına qarşı da eyni ssenari üzrə hərəkətlilik baş verə bilər. Belə ki, hazırda Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti və Vergi Auditi Departamentində qeyri-rəsmi yoxlamaların aparıldığı bildirilir. Ayrı-ayrı sahibkarlar çağırılaraq sorğu-sual olunur, onlardan hədə, zor yolu ilə alınan "şapka"ların məbləğləri aydınlaşdırılır.

Fazil Məmmədovun iri çaplı sahibkarlara qarşı tətbiq etdiyi "dinmə, ver, vergisi"nə məruz qalanların siyahıları tutulur. Onların ödədikləri məbləğlərin hesabatı hazırlanır. Toplanan materialların sonradan cinayət işlərinin əsasını təşkil edəcəyi də istisna deyil. Gələn məlumatlarda iddia olunur ki, proses ayın sonuna qədər davam etdiriləcək. Əldə olunan məlumatlar təhlil ediləndən sonra isə Fazil Məmmədovun kadrlarına qarşı ittihamlar irəli sürülə bilər. Mümkündür ki, sabiq nazirin işə qəbul etdiyi və yaxın çevrəsinə daxil olan bir neçə iri vergi məmuru qandallanacaq. Onlardan Fazil Məmmədova qarşı ifadələr alınacaq. Bu isə Fazil Məmmədova əlavə və kəsərli təzyiq göstərmək üçün imkanlar yaradacaq. Yada salaq ki, Fazil Məmmədov işdən çıxarılandan 1 gün sonra Ali Məhkəmədən bu baxımdan maraq doğuran açıqlama verilmişdi. Dekabrın 5-də axşam saatlarında artıq sabiq nazirə çevrilən Fazil Məmmədovun fəaliyyətinə dekabrın 6-da səhər Ali Məhkəmədən belə bir qiymətverici məlumatla münasibət açıqlanıb.

Rəsmi məlumat belə idi: "Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin Vergilər Nazirliyinin struktur qurumlarına qarşı inzibati-iqtisadi məhkəmələrdə 2016-cı ildə 869, 2017-ci ilin birinci yarısında 218, cəmi 1087 iddiaya baxılıb". "APA-Economics"in məlumatına görə, bu barədə Azərbaycan Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının sədri Hikmət Mirzəyev məlumat verib. H.Mirzəyev bildirib ki, bunlardan 688 (63,3%) iş üzrə qərarlar vergi ödəyicilərinin xeyrinə verilib. 184 (16,9%) iş üzrə iddialar təmin edilməyib, 215 (19,8%) iddia isə mümkün sayılmayıb. "Təəssüflə qeyd etmək istərdim ki, bəzən mətbuat orqanlarında məhkəmələrdə baxılan işlər barədə həqiqətə uyğun olmayan və qərəzli yazılar dərc olunur. Həmin yazılardan belə bir yanlış nəticə çıxır ki, guya məhkəmələr vətəndaşların, sahibkarların və hüquqi şəxslərin inzibati orqanlara qarşı iddialarını rədd edir, onların qanuni hüquqlarını müdafiə etmirlər. Sözsüz ki, bu, belə deyil. Əvvəl qeyd etdiyim faktlar, baxılan işlərin statistikası həmin mətbu orqanların qərəzli və həqiqətə uyğun olmayan məlumatlarını təkzib edir. Göründüyü kimi, açıqlanan rəqəmlər onu göstərir ki, vergi ilə yaranmış mübahisələr əksər halda sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin xeyrinə həll edilir. 1 noyabr 2017-ci il tarixinə olan məlumata əsasən, respublika üzrə 902 min 303 vergi ödəyicisi qeydiyyatdan keçib. Onlardan 399 min 774 vergi ödəyicisi aktiv fəaliyyətdədir və vaxtında vergiləri ödəyirlər. Məhkəmələrdə bu cür baxılan işlərin sayı az olduğundan (aktiv vergi ödəyicilərinə nisbətdə işlərin sayı 2016-cı il və 2017-ci ilin 6 ayı üzrə cəmi 1087, yəni 0,3 faiz təşkil edir) vergi münasibətlərinə heç bir təsir göstərə bilməz. Vergi ödəyicilərinin ümumi sayını nəzərə alaraq bu cür mübahisələrin az olması onu göstərir ki, əksər hallarda vətəndaşlar və sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər vergi öhdəliklərini yerinə yetirirlər".

Yəni elə ilk günlərdəcə Fazil Məmmədova ismarıc verilib ki, onun qanunsuzluqlarından narazı qalan sahibkar ordusu var. Onların az bir qisminin ifadələrinin rəsmiləşdirilməsi Fazil Məmmədov və komandasının həbsinə kifayət edər. Hazırda hələ ki, material şəklində olan və hər an cinayət işinə çevrilə biləcək cinayət dosyeləri toplanır. Bu işlərin varlığı ölkədən çıxarılan 4.5 milyardlıq "qara pul"un geri qaytarılması üçün qarantiya rolunu oynaya bilər...

❑ **E.HÜSEYNOV**

# Trampın ləqəbləri - gicbəsər, kütbeyin, zırrama...



**Samir SARI**

**Bu ilin ən gülməli xəbəri hələlik budur. ABŞ-da Tramp haqqında 250 min tirajla bir kitab çıxıb. Kitabın çıxması özlüyündə, əlbəttə, gülməli deyil, gülməli olan kitabda prezident Tramp haqqında yazılanlardır.**

Adamın saçının boyasından tutmuş ta ömür-gün yoldaşı ilə ayrı yataqlarda yatmasına qədər çox şey yazıblar.

Hərçənd bu, axırıncını yazmasalar da olardı, nəyimizə lazım, nə dərdimizə, borcumuza qalıb ki, kim harda necə yatır. 70 yaşlı kişinin tək və ya cüt yatması nə dünya, nə də ABŞ üçün ictimai-siyasi əhəmiyyət kəsb eləmir.

Ancaq məsələn, cənab Trampın huşsuzlaşması, hətta yaxın dostlarının adını unutması beynəlxaq miqyasda ictimai-siyasi əhəmiyyət daşıyır. Birdən adam qəzəbləndi (onda belə şeylər tez-tez olur) və "Venesuelanı vurun" əvəzinə "Venetsiyanı vurun" dedi, onda nə olacaq? Hələ bunun Şimali Koreya ilə Cənubi Koreyanı qarışdırması, ABŞ-ın Corciya (Georgia) ştatına uçmalı olduğu yerdə Qafqazdakı eyni adlı ölkəyə - Gürcüstana (Georgia) gəlməsi var. Huşsuz adamdan nə desən çıxar.

Bir şey ki, öz işçiləri ona Ağ Evdə "zırrama" deyirlər. Məsələn, maliyyə naziri Stiv Mnuçin və president administrasiyasını keçmiş rəhbəri Rayns Pribus öz aralarında danışanda deyirmişlər ki, ey, dostum Stiv (yaxid, ey Rayan) bizim o zırrama yerindədirmi.

Amma insafən, Trampın baş iqtisadçısı Qari Kon şefinə hörmətlə yanaşırmış, təhqiramiz ifadələrə yol vermirmiş, eləcə deyirmiş, bu kütbeyin də iqtisadi məsələlərdən baş açmır. Milli təhlükəsizlik müşaviri Makmaster isə Trampı "gicbəsər" adlandırırmış. Təbii ki, üzünə qarşı yox, daldada, onun-bunun yanında. Adam düşünür ki, Makmaster bizim dili bilsə, öz rəhbərinə mütləq "gicbəsər" kəlməsinin ana dilimizdəki identik qarşılığını deyərdi. Haqq üçünə, bizimki deyilişdə daha yaxşı səslənir. Bir var "gicbəsər", bir də "anvays" (unwise) - hansı yaxşıdır?

Bəs Trampın əslində necə biri olduğunu ən yaxşı kim bilər? Təbii ki, onun ən yaxın və ən köhnə dostu. Bu adam kimdir? Milyarder Tomas Barrak. Məhz Barrak öz köhnə dostu barədə deyilənlərlə razılaşmayıb, deyib ki, o təkcə dəli deyil, həm də axmaqdır.

Ancaq Tramp özü də azacıq aşın duzu deyilmiş, ağzıpərtonun biriymiş, zəhləsi gedən baş prokuror əvəzi Salli Yatesə elə bir təhqiramiz söz deyirmiş ki, mən onu burda yaza bilmərəm, yalnız kişi tay-tuşlarıma telefonla deyə bilərəm. Ayıb, çox ayıb. Bir baş prokurora elə söz deyilərmi? Camaatın anası-bacısı var.

Kitabda bir detal da var, bilmirəm gülməlidir, ya ağlamalıdır. Məsələ belədir ki, İvanka Tramp və onun əri Cared Kuşner öz aralarında indidən razılığa gəliblər ki, gələcəkdə ikisindən biri prezident olsun. Gənclər əvvəlcə bir az mübahisə ediblər, sonra razılaşıblar ki, İvanka prezident olsun. Hiss olunur ki, onlar hələ bir yerdə yatırlar, anlaşa bilirlər (bu da bizim borcumuza deyil).

Bu isə ürəkaçan faktdır: Tramp öz ölkəsinin konstitusiyasını prezident seçiləndən sonra öyrənib. Bu işdə ona köməkçisi Sam Nunberq kömək edib. İntəhası, o, sonradan dilini qarnına qoymayıb, gedib orda-burda deyib ki, guya konstitusiyanı öyrənəndə prezident gözlərini bərəldirmiş. Təxminən o mənada ki, indi bunlara necə əməl edəcək, əgər ölkəni krallar, diktatorlar kimi idarə etməyəcəksə, onda bu vəzifəyə niyə seçilib.

Əlbəttə, prezidentin konstitusiyanı heç bilməməsi və tez-tez tapdamasındansa, gec öyrənib, ona riayət etməsi daha təqdirəlayiqdir. Təzə-təzə işə başlayanda Trampda bir Ağanəzər havası vardı, elə bilirdi ki, ABŞ bunun şirkətidir, istədiyi adamı istədiyi yerdən qovdura, tutdura bilər. Sonra adama başa saldılar ki, yox elə deyil. İndi hətta onun özünün işini araşdırırlar, ola bilər ki, bu il onu işdən çıxardacaqlar.

**Dünyanın ən böyük ölkəsinin rəhbərinin günü budur. İşçiləri adama zırrama deyir, xalq ona ağzını ayırıb gülür, senatorlar xəcalətlərindən senata gələ bilmirlər, konqresmenlər o tərəfdə utanır. Təkcə İvankanın kefi kökdür, deyir, Cared, papam vəzifəsini mənə verib gedəndə mən ölkəmizin ilk qadın prezidenti olacam, sən də "först men" olarsan.**

YENİ MÜSAVAT
N 2 (6891) 6 yanvar 2018

**Sabiq nəqliyyat naziri Ziya Məmmədovun müşaviri olmuş Çingiz Baxşıyevin şikayəti əsasında 1 ildən çox həbsdə qalan, Bakı Ağır Cinayətlər Məhkəməsinin 21 aprel 2017-ci il tarixli hökmü ilə bəraət alaraq məhkəmə zalından azadlığa buraxılan Rövşən Əhmədovun intihar cəhdi haqda yazmışdıq. Rövşən Əhmədov dekabrın 21-də 01:07 radələrində ağır dərman zəhərlənməsi diaqnozu ilə koma vəziyyətində Respublika Toksikologiya Mərkəzinə yerləşdirilib. Oradan isə Respublika Psixatriya Xəstəxanasına köçürülüb.**

# Ziya Məmmədovun adamı öz xalası oğlunu yenidən həbsə göndərmək istəyir

## Xanım Əhmədova: "Rövşən növbəti dəfə intihara cəhd etsə, buna görə cavabdeh Çingiz Baxşıyevdir"

**R.Əhmədovun həyat yoldaşı Xanım Əhmədova** redaksiyamıza gələrək bildirib ki, Çingiz Baxşıyev əlaqələrindən istifadə edərək həyat yoldaşının müalicə olunmasına imkan vermir: "Yanvarın 5-də xəstəxanadan zəng edib dedilər ki, həyat yoldaşımı xəstəxanadan çıxarırlar. Özüm də həkiməm, deyirəm ki, xəstə adamı necə çıxarırsız? Cavab vermirlər. Xahiş edirəm bu məsələni araşdırsınlar. Bizə kömək etsinlər. 1 il məhkəmə gedib, hərtərəfli araşdırma aparılıb. Üzə çıxıb ki, Çingiz Baxşıyevin qızıllarının oğurlanması ilə bağlı dedikləri həqiqət deyil. Onun dedikləri sübuta yetmədi. Amma yalançı şahidlərin ifadələrinə əsasən Rövşəni yenidən həbs etmək istəyirlər. Ona görə də Rövşən intihara cəhd etdi, dərman içdi. Ölkə rəhbərliyindən xahiş edirəm, bizə dayaq olsunlar, ailəmizin məhv olunmasının qarşısını alsınlar. Çingizin pulu çoxdur. Rövşən Çingizin qara işlərini bilir. Onu bu işlərə cəlb etmək istədi, Rövşən bu yola getmədi. Onu intihara məcbur edən Çingiz Baxşıyevin əməlləridir. Bizə təzyiqlər olunur. Mən həkimləri, baş həkimi də başa düşürəm. Açıq deyirlər ki, onlara da təzyiq var. Məhkəməyə də təzyiq olur. Bir nəfəri tutub gətiriblər və Rövşənin üzünə qoyurlar. 1 il məhkəmə getdi, üzə çıxdı ki, qızıl söhbəti yalandır. Bu Rövşəni qorxutmaq üçün bir iş idi".




**X.Əhmədova deyib ki, Baxşıyevin xalası oğlu olan həyat yoldaşının intihara cəhd etməsinə səbəb Bakı Apelyasiya Məhkəməsində üzləşdikləri qanunsuzluqlardır:** "Rövşən Əhmədov özünə qəsd etməzdən əvvəl məktub yazıb ki, "Çingiz Baxşıyev tərəfindən özünə və ailə üzvlərimə qarşı təhdidlərə, oğlumun, qızımın anbaan izlənməsinə, hədə-qorxulara tab gətirə bilmir. Hüquq-mühafizə orqanları şikayətlərimə baxmır. Ona görə də həyatıma qəsd edirəm. Mənim ölümümdə günahkar Çingiz Baxşıyevdir". İndi də xəstəxanadan onu zorla çıxarıblar. Həkimlər də deyir ki, təzyiqlər var, ona görə Rövşəni xəstəxanada saxlaya bilmirlər. O, intihar etsə, buna görə cavabdeh Çingiz Baxşıyevdir. Rövşən məhkəmədə dəfələrlə dedi ki, ona verilən ittiham Çingizin ona etdiyi narkotik alveri ilə bağlı təklifi qəbul etmədiyinə görədir. Rövşən məhkəmədə demişdi ki, Çingizin İrana getməklə bağlı təklifini qəbul etmədiyinə görə saxta ittihamla həbsə alınıb. Baxşıyev Nəqliyyat Nazirliyində işdən çıxandan sonra Rövşənə demişdi ki, sən də işdən çıx, ayda 500 min gəlirin olacaq. Rövşən də ondan soruşmuşdu ki, bu qədər pul haradan gələcək. Demişdi ki, səni İrana yollayacağam, ora Qırğızstandan, Qazaxstandan gəmilərlə mallar göndəriləcək, sən nəzarət edəcəksən. Narahat olma, bunu Ziya müəllim də bilir. Sən İranda otur, mən burda sənin bütün işlərini də həll edəcəyəm. Rövşən bu alverin nədən ibarət olduğunu biləndə bu təklifdən imtina etmişdi. Rövşən bunun sırf gələnlərin, gedənlərin bilirdi. Aeroportdan pul göndərməyin, qəbul eləməyin Rövşən görmüşdü. Haralardan gedib milyonlar götürürdülər, Rövşən bilirdi. Rövşən onunla işləmədiyinə görə, bu işlərdən uzaq qaldığına görə onu əvvəl oğlumuzu öldürməklə hədələdi. Demişdi ki, get oğluna qəbir qazdır, oğlunla vidalaş. Sonra qızımızı həbslə, tutdurmaqla, itirməklə, Dubaya göndərməklə hədələdi. Mənə qarşı 2 dəfə avtoqəza baş verdi. Bütün bunları məhkəmədəki çıxışlarında, dövlət orqanlarına müraciətlərində bildirmişdi. Bizim ailənin bu gün bu vəziyyətə salınmasına səbəb Rövşənin Çingizin qara işlərini eləməməyidir. Rövşən onun dediyini eləsəydi, bu gün bizim başımız ağrımazdı. Rövşən Azərbaycan xalqının balalarını məhv etmək istəmədi".

**Qeyd edək ki, bəraət alaraq azadlığa çıxan R.Əhmədovun barəsindəki hökmdən qarşı tərəf apelyasiya şikayəti verib. Bakı Apelyasiya Məhkəməsində hakim Əmir Bayramovun sədrliyi ilə 6 aydan bəri davam edən məhkəmə prosesi yekunlaşmaq üzrədir. Ötən məhkəmə iclasında dövlət ittihamçısı R.Əhmədov barəsindəki bəraət hökmünün ləğv olunmasını və onun 10 il azadlıqdan məhrum edilməsini istəyib.**

❑ E.MƏMMƏDƏLİYEV

# Alpinistlərin itməsindən 10 gün keçdi

## Xaricdən texnika və xilasedicilər gətirməyə ehtiyac varmı?

**Dekabrın 25-də Tufandağda itkin düşmüş gənc alpinistlər - Babur Hüseynov, Namin Bünyatov və Fəridə Cəbrayılzadənin axtarışları hələ də nəticəsiz qalıb. Ötən günlər ərzində alpinistlərin izlərinə rast gəlinmədiyi üçün onların harada və necə olduqları da bilinmir. Ancaq hər ötən gün gənc alpinistlərin əleyhinə işləyir. Çünki Tufandağda iqlim olduqca sərtdir və soyuq havada onların həyatda qalma ehtimalları da artıq azalmaqdadır.**

Məsələ sosial şəbəkələrin də əsas müzakirə mövzusudur. Mediada da axtarışların davam etməsi və hələ heç bir nəticənin olmaması ilə bağlı xəbərlər ara vermir.

İtkin düşən alpinistlərdən biri Babur Hüseynovun dostlarının musavat.com vasitəsilə yaydıqları ictimaiyyətdə böyük reaksiyalara səbəb olan müraciətlərində əsas tələblərdən biri də xaricdən texnika və xilasedicilərin gətirilməsi idi.

Məsələ ilə bağlı Fövqəladə Hallar Nazilriyinin (FHN) itkin düşmüş alpinistlərin axtarışları ilə əlaqədar yaradılmış Əməliyyat Qərargahı məlumat yayıb. Bildirilir ki, əraziyə ağır texnikanın işə cəlb olunması mümkün deyil: "Son günlər intensiv yağan qar səbəbindən axtarışların getdiyi ərazilərdə yeni qar uçqunlarının yaranma ehtimalı artıb. Qurum qar örtüyünün qalınlığının 1-1,5 metrə çatdığını deyir. Qeyd edilir ki, qar uçqunlarının olduğu yerlərdə qar qatının qalınlığı 8-12 metrə qədərdir. "Qeyd olunanları nəzərə alaraq, hadisə rayonuna ağır texnikanın və digər texnikaların cəlb edilməsi daha təhlükəli vəziyyət yarada bilər. Yaranmış şəraitdə axtarış-xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması daha da çətinləşib".

Axtarışa qoşulan bəzi könüllülər bir neçə gün öncə bəyanat yayaraq, axtarışın səmərəliliyini artırmaq üçün təkliflərini səsləndirmişdilər. Onlar axtarış aparılan məkana 5 ekskavator gətirilməsini təklif etmişdilər.

Bundan başqa, könüllülər axtarış məkanında gecələmək üçün çadırlar, yuxu tulumları, matlar, 5 böyük həcmli generator, istilik sobaları, yemək bişirmə və su qızdırma avadanlıqların gətirilməsi zəruriliyini vurğulamış, bildirmişdilər ki, qərargah axtarış yerinə yaxın məsafəyə köçürülməli, xüsusi dedektorlardan istifadə edilməlidir.

**Xınalıq kənd sakinləri isə hesab edirlər ki, alpinistlərin sağqalma ehtimalı var. Sakinlərin sözlərinə görə alpinistlər mağaraya giriblərsə və ərzaqları da varsa, sağ qalma ehtimalları yüksəkdir. Lakin orada olan alpinistlər bidirirlər ki, həmin istiqamətdə mağara yox səviyyəsindədir.**



*Bəs xaricdən alpinist və ya texnika çağırma prosesi necədir?*

"Yeni Müsavat"a danışan **alpinist Emil Vəliyev** bildirib ki, xaricdən alpinistlər müqavilə əsasında cəlb olunur:

"Müəyyən şirkətlər var ki, onlarla müqavilə bağlanarsa ölkəyə gələ bilərlər. Eyni zamanda, dəvət nəticəsində də onların axtarışlarda iştirak etməsi mümkündür. Ümumiyyətlə, Azərbaycan dağlarında ilk dəfədir ki, böyük xilasetmə işləri aparılır. İndiyə qədər bu baş verməyib. Deyim ki, ölkəmizdə kifayət qədər peşəkar kadrlar var. Xaricdən dəvət olunacaq alpinistlərə xərclənəcək vəsaiti yerli kadrlarla işə xərcləsələr, daha effektiv olar. Yerli alpinistlər 4 gün orada könüllü və pulsuz elə bir iş gördülər ki, xarici şirkətlər bunu baha qiymətə edərdilər. Texnikaya gəlincə isə deyim ki, Azərbaycanda qarın altında 20-30 metrəni oxuyan cihaz yoxdur. Müəyyən Avropa ölkələrində bu cihazdan ola bilər. Ancaq son nəticədə yenə də qazıntı aparılmalıdır. Xarici şirkətlərin dəvət olunması dövlətlər arası münasibətlərdən də asılıdır. Müəyyən alpinist şirkətlər var ki, onlar belə işləri humanitar formada edirlər. Yəni yalnız gediş-gəliş xərcləri ödənilir. Azərbaycanda peşəkar alpinist şirkətləri çoxdur ki, onlar da eyni işi görə bilərlər. Hazırda yerli qüvvələr bir qədər kənarda qalıb. Düşünürəm ki, onlar unudulmamalıdır".

❑ Əli RAİS,
❑ "Yeni Müsavat"

# Əli İnsanov yenə hakim qarşısına çıxarılır

## Sabiq nazir məhkəməyə gəlməkdən imtina edir

**Sabiq səhiyyə naziri Əli İnsanovun işinə Ali Məhkəmədə baxılacaq. Məhkəmənin vaxtı məlum olub.**



Musavat.com xəbər verir ki, məhkəmə iclası yanvarın 16-da baş tutacaq. Bu barədə Ə.İnsanovun vəkili məlumat verib. **Vəkil Toğrul İsmayılov** bildirib ki, Əli İnsanov məhkəmə prosesində iştirak etməkdən imtina edib və ötən proses də məhkəməyə gəlməyib.

Sonuncu proses noyabr ayında baş tutmuşdu. Dövlət ittihamçısı icraatında çox iş olduğu üçün cinayət işi materialları ilə tanış olmadığını bildirərək vaxt istəmişdi.

Sabiq nazir Qaradağ rayon Məhkəməsinin barəsində çıxardığı hökmdən verdiyi apellyasiya şikayəti Bakı Apellyasiya Məhkəməsi tərəfindən təmin edilməyən Əli İnsanov Ali Məhkəməyə müraciət edib.

Ə.İnsanovun şikayətinə hakim Fərhad Kərimovun sədrliyi ilə baxılacaq.

Qeyd edək ki, bir müddət əvvəl Ə.İnsanov Ali Məhkəməyə verdiyi şikayətə baxılmamasından narazı qalaraq Ali Məhkəmənin sədri Ramiz Rzayevə məktubla müraciət etmişdi.

Qeyd edək ki, Ə.İnsanov barəsində Cinayət Məcəlləsinin 234.1-ci (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama), 315.2-ci (Hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmə, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı belə zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmə, bu maddədə göstərilən şəxslərə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) və 317-2.1-ci (Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi, eyni əməllər təkrar törədildikdə) maddələri üzrə cinayət işi başlanmışdı. Ona törətdiyi əmələ görə 7 il 5 gün azadlıqdan məhrumetmə cəzası təyin edilmişdi.

O, bu hökmdən apellyasiya şikayəti vermişdi. Şikayəti təmin edilməyən sabiq nazir Ali Məhkəməyə müraciət etmişdi.

**Xatırladaq ki, Ə.İnsanov 2005-ci ilin oktyabr ayında həbs olunmuşdu. O, dövlət vəsaitlərinin mənimsənilməsində və dövlət aktivlərinin qanunsuz özəlləşdirilməsinin təşkilində ittiham edilirdi. 2007-ci ilin aprel ayında əmlakı müsadirə olunmaqla 11 il müddətinə azadlıqdan məhrum olunan Ə.İnsanovun cəza müddəti ötən ilin oktyabr ayında başa çatırdı. Lakin bundan az öncə ona digər cinayət işi başladı.**

❑ İlkin MURADOV

**Ötən ilin son günlərində Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2018-ci il büdcəsi ölkə prezidenti tərəfindən təsdiqlənib. Ölkə prezidentinin bununla bağlı sərəncamına əsasən Fondun builki gəlirləri 11 milyard 559 956,2 min manat, xərcləri isə 9 milyard 730 221,8 min manat məbləğində təsdiq edilib.**

# Neft Fondunun “uzunömürlü” xərcləri

## Bakı-Tiflis-Qars da onlardan biridir...

Gəlirlərin böyük hissəsini - 9 milyard 723 786,1 min manatını Azərbaycanın payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər təşkil edəcək. Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlirlər 1 milyard 042 046, 1min manat, neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilərin ödədikləri bonuslar 774 172,0 min manat, tranzit gəlirləri 16 340,0 min manat, akrhesabı ödənişlərdən gəlirlər isə 3 612,0 min manat olacaq. Neft Fondunun xərclərinə gəlincə, ən çox vəsait dövlət büdcəsinə transfert ediləcək - 9 milyard 216 milyon manat.

Qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsinə bu il 200 milyon manat sərf olunması nəzərdə tutulur. Qeyd edək ki, bu xərc maddəsi Neft Fondunun ən “uzunömürlü” xərcidir. Belə ki, 2001-ci ildən 30.09.2017 tarixə qədər olan dövr ərzində bu layihə üzrə tədbirlərə Fonddan ümumilikdə 2 milyard 80,2 milyon manat sərf olunub. Bu istiqamətdə xərclər ötən il 90 milyon manat nəzərdə tutulsa da, ilin ortasında 105 milyon manatadək artırılıb. Ayrılmış ümumi vəsait hesabına Azərbaycanın müxtəlif bölgələrində yeni yaşayış məhəllələri və qəsəbələri salınıb. Bu tədbirlərin maliyyələşdirilməsi üçün ayrılan vəsaitlər Dövlət Neft Fondu tərəfindən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, habelə Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu dövlət xəzinədarlığındakı hesablarına köçürülür və sonra sifarişçi təşkilatlar tərəfindən podratçı təşkilatlara ödənilir.

Fondun ikinci “uzunömürlü” xərci “Samur-Abşeron suvarma sisteminin yenidən qurulması” layihəsidir. Rəsmi məlumata əsasən, layihənin əsas məqsədi Bakı və Sumqayıt şəhərlərinin su təchizatı sistemləri üçün sabit su sərfinə malik etibarlı su mənbəyi yaratmaq, suyun nəqlində mövcud enerji sərfini aradan qaldırmaq və bunun müqabilində 25 MVT gücündə enerji istehsal etməkdir.




“Samur-Abşeron suvarma sisteminin yenidən qurulması” layihəsinin idarə edilməsi və sifarişçisi funksiyalarının icrası Nazirlər Kabinetinin sərəncamı ilə Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə (AMST ASC) tapşırılıb. 2006-cı ildən 30.09.2017-ci il tarixinə Dövlət Neft Fondundan layihənin maliyyələşdirilməsinə dair müqavilələr üzrə ümumilikdə 1 milyard 349,1 milyon manat vəsait istifadə olunub. Bu il isə qeyd olunan xərc maddəsi üzrə daha 90 milyon manatın xərclənməsi nəzərdə tutulur.

Neft Fondunun çoxillik xərclərindən biri olan Bakı-Tiflis-Qars dəmiryol xəttinin tikintisi üzrə bu il də vəsait ayrılıb. Dəmiryol xəttinin ötən ilin oktyabrında istifadəyə verilməsinə baxmayaraq, bu il də ona 176 milyon 128 min manat vəsait ayrılması suallar yaradıb. Bu suallarla bağlı Fonddan verilən açıqlamaya görə, həmin vəsait Gürcüstana ayrılmalı olan kreditin qalığı və qonşu ölkə ərazisində dəmiryolu boyu bəzi yarımçıq tikinti işlərinin tamamlanması ilə bağlıdır.

Fond xatırladır ki, bu layihə çərçivəsində Azərbaycan Gürcüstana 775 milyon dollarlıq kredit xətti açıb: “Layihənin əvvəlindən bu günə qədər Dövlət Neft Fondu tərəfindən ümumilikdə 642.3 milyon dollar ödənilib, kredit xətti üzrə qalıq məbləğ 132,7 milyon dollardır”.

Fonddan verilən məlumata görə, dəmiryolu xəttinin istifadəyə verilməsinə baxmayaraq, Gürcüstanın yeni dəmiryolu boyu inşa edilən ərazisində layihəyə aid köməkçi və bəzi infrastruktur obyektlərin, o cümlədən yeni dəmiryolu stansiyasının tikintisi ilə bağlı işlərin tamamlanması nəzərdə tutulur. Kreditor tərəfindən verilmiş proqnoza əsasən, bu işlərin həyata keçirilməsi üçün Neft Fondunun 2018-ci il üçün büdcəsində 102,4 milyon ABŞ dolları və yaxud 176,1 milyon manat məbləğində vəsait nəzərdə tutulub.

Neft Fondunun builki xərclərindən biri də “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın maliyyələşdirilməsidir - 16 milyon 218 min manat. Artıq başa çatmış olan bu proqramın maliyyələşdirilməsinə 2008-2017-ci illər ərzində Dövlət Neft Fondu tərəfindən ümumilikdə 199 659,5 min manat, o cümlədən 2017-cı ilin üç rübü üzrə 11 223,5 min manat məbləğində vəsait sərf olunub. Bu vəsait Dövlət proqramı çərçivəsində xarici ölkələrdə təhsil alanların yaşayış (6 150,6 min manat), təhsil haqqı (4 469,4 min manat), yol (379,2 min manat), sığorta (219,5 min manat), viza, qeydiyyat və digər (4,8 min manat) xərclərin ödənilməsinə yönəldilib.

ARDNF-nin cari ildə büdcə xərclərinin sonuncusu özünün idarə olunması ilə bağlıdır. Bu istiqamətə 31 milyon 875,8 min manat sərf olunması nəzərdə tutulur.

❑ **DÜNYA,**
**“Yenì Müsavat”**

# Mərkəzi Bank qeydiyyata alınmayan pul nişanlarının ekspertizasını aparmayacaq

**Azərbaycan Mərkəzi Bankı (AMB) banklara və poçt idarələrinə məktub göndərib.**

“APA ttp://apa.az/-Economics”in bank dairələrindən əldə etdiyi məlumata görə, məktubda qeyd olunub ki, Azərbaycan Respublikası Nazirlər Kabineti ttp://apa.az/tag/Nazirl%C9%99r-Kabinetinin 09 dekabr 2004-cü il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş “Poçt göndərişlərində göndərilməsi qadağan olunan malların və əşyaların Siyahısı”nın 4.11-ci bəndinə əsasən sikkələr və banknotların poçt vasitəsilə göndərilməsi qadağandır.



“Odur ki, ekspertizanın aparılması məqsədilə Mərkəzi Banka göndərilən pul nişanları Nağd pulun İdarəetmə İnformasiya Sisteminin Veb-portal modulunda şübhəli pul kimi qeydə alındıqdan sonra inkassator vasitəsi ilə (müvafiq pul nişanını təqdim edən şəxsin imzalanmış ərizəsinin bir nüsxəsi əlavə edilməklə) təqdim edilməlidir”, - deyə məktubda vurğulanıb.

AMB-dən bildirilib ki, 01 fevral 2018-ci il tarixindən etibarən Veb-portalda qeydə alınmadan ekspertizanın aparılması üçün göndərilən pul nişanları Mərkəzi Bank tərəfindən qəbul edilməyəcək.

**Məlumata görə, bu tədbirin məqsədi dövriyyədə olan pulların daha keyfiyyətli olması və saxta pullara qarşı mübarizə kimi göstərilir.**

# Bir referendum da keçirək!



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Cümhuriyyətimizin qurulmasının, Bakının daşnak-erməni tör-töküntülərindən azad edilməsinin 100-cü, Qarabağda erməni separatizmin başlamasının isə 30-cu ilinə girmişik. İki möhtəşəm yubiley, bir “qara” yubiley (fevral, 1988) ərəfəsindəyik. Keşkə, sonuncunu heç yaşamasaydıq.**

Bizim indiyədək bitməyən Qarabağ fəlakətimiz də elə ondan başlayıb ki, Sovet Rusiyası müsəlman Şərqində ilk demokratik respublikanın varlığına son qoymaqla bahəm, bizə başqa pisliyi də keçib: Azərbaycanın köksündə 70 il sonra partlayacaq “QDMV minası” quraşdırıb. Bu saxta qurum olmasaydı, Ermənistan Azərbaycana qarşı ərazi iddiasına və işğala heç cür don geydirə bilməyəcəkdi. Ermənistandan 80-ci illərdə çıxarılan azərbaycanlılarla Qarabağ ermənilərinin statusu, faktiki, bərabərləşmiş olacaqdı.

Bu ilin mayında Azərbaycan və Gürcüstanla yanaşı, saxta qonşularımız ermənilər də öz dövlətlərinin 100 illiyini qeyd edəcəklər. Bu, əlbəttə ki, tarixə istehza eləməkdir. Çünki “Ermənistan respublikası” - qonşulardan halallığı alınmamış bic bir dövlətdir, oradakı ermənilər öz tarixi vətənlərində yaşamırlar.

Belə bir ilginc fakt: ermənilər yeganə millətdir ki, bütün dünya onları “erməni” adlandırdığı halda, onlar özlərinə “hay” deyirlər (Tarixçilər iki xalqın fərqli olduğunu çoxdan isbatlayıblar). Yəni, dünyanın “Ermənistan” kimi tanıdığı ərazidə əslində erməni milləti yox, gəlmə və yad bir millətin daşıyıcıları - haylar yaşayır. Ermənistan əhalisinin aborigen olmadığına dair bundan güclü dəlil və ya bundan güclü özünü ifşa ola bilməz...

SSRİ-nin süqutundan sonra hələ ki Ermənistan bircə gün də müstəqil olmayıb, suveren xarici siyasət yürütməyib. 100 il öncəki kimi bu gün də o, rusun bölgədə Azərbaycan üzərində əsas maşası, marioneti rolundadır. Müstəqil dövlət isə sərbəst şəkildə ayaq üstdə dura bilən, özünü təmin edən dövlətə deyirlər. Ermənistan müstəqil olarsa, Allah bilir ondan nə qalar.

Bu, da faktdır ki, 1919-cu ildə - aprel işğalına bir il qalmış ABŞ, Fransa kimi aparıcı dövlətlər Azərbaycan Xalq Cümhuriyyətini məhz Zəngəzur, Qarabağla birgə tanıyıb. Amma işə bax ki, indi vasitəçi dövlətlərdən olan həmin ABŞ və Fransa Zəngəzursuz Azərbaycandan üstəlik, Qarabağ erməniləri üçün “öz müqəddəratını təyinetmə haqqı” umur. Bir ovuc erməni üçün referendum ideyasını ortaya atıblar. Halbuki, ərazisində analoji konfliktlər yaşanan qonşu Gürcüstan, Moldova və Ukraynaya münasibətdə belə ədalətsiz yanaşma mövcud deyil.

Yubiley ilində Azərbaycan diplomatiyasının bir mühüm hədəfi də, bizcə, bu ədalətsiz, qərəzli həll formulunu siyasi gündəmdən birdəfəlik çıxarmaq olmalıdır. Bundan ötrü Azərbaycan xalqının iradəsinin xüsusən də yubiley ilində təsbit edilməsi vacibdir. Məsələn, Konstitusiyanın tələb elədiyi qaydada ölkə ərazisində referendum keçirib Dağlıq Qarabağ erməniləri üçün ölkə sərhədləri daxilində verilə biləcək ən yüksək status - təhlükəsizlik zəmanəti ilə birgə muxtar respublika statusu təklifi qətiləşdirilə bilər.

Bu, artıq hakimiyyətdəki bütün iqtidarlar üçün sülh danışıqlarında keçilməz “qırmızı xətt” demək olacaq. Xalqın iradəsini əsas götürən hökumət Qarabağla bağlı suverenliyimizə təhdid yaradan istənilən təklifi asanca geri çevirə biləcək. Azərbaycan diplomatiyasının başına - Elmar Məmmədyarovun yerinə daha bacarıqlı bir şəxsin gətirilməsinin də vaxtı çatıb zənnimizcə.

Paralel surətdə Ermənistandan - tarixi yurd yerlərindən 30 il öncə qovulmuş və əraziləri etnik təmizlənməyə məruz qalmış 200 minlik azərbaycanlının məsələsini bu il gündəmə qaytarmaqla erməni tərəfinin danışıqlarda manipulyasiya imkanları bir az da daralda bilərik...

*****

İndiki Ermənistan tarixi türk torpaqlarında təşəkkül tapıb - burası məlum. Onun Azərbaycan əraziləri hesabına 100 il sonra yenə böyüməsinə yol verə bilmərik. Hər şey qırağa, Cümhuriyyəti quran böyük kişilərin ruhu bunu bizə bağışlamaz.

**Ermənistan onsuz da daha böyüməyəcək. Böyüyə bilsəydi, 30 ildə Dağlıq Qarabağdakı separatçı rejimi dünyanın heç olmasa, bir ölkəsi tanıyardı. Bu da bir göstəricidir ki, dünya birliyi xəritədə ikinci erməni dövlətinin yaranmasına anormal baxır. Keçirəcəyimiz Qarabağ referendumu dünyadakı bu ovqatı xeyli gücləndirərdi...**

YENİ MÜSAVAT
N 2 (6891) 6 yanvar 2018



# Bublik köşə yazarı

Zamin HACI
zaminhaci@gmail.com

**Deyir teleqüllə ətrafında çatlar yaranmışdır, sürüşmə zonası aktivləşmişdir. Burada 3 səbəb ola bilər: ya televizorda çoxlu şirin yalanlar danışmaqdan torpaq çat verir, ya Amerikadan maliyyələşən xarici qüvvələr Həmid müəllimdən borc aldıqları tektonik silahı işə salıblar, ya da Əli Kərimlinin əli vardır.**

Ümumiyyətlə, televiziyanın bizim həyatımızda rolu olduqca böyükdür. Onlar bizim evlənməyimizdən, dünyaya uşaq gətirməyimizdən tutmuş yoxa çıxmağımıza və tapılmağımıza, yeməyimizdən geyimimizə, musiqi zövqümüzdən siyasi qanmazlığımıza qədər hər işə qarışırlar. Mütləq qarışmalıdırlar da. (Burada çaşıb öncə "qarışmalıdır" yerinə "qırışmaldır" yazmışdım). Kimsə adam öldürəndə də bunu televiziya işçiləri axtarıb tapırlar, qəmli süjetlərlə göstərirlər, nəticədə hüquq-mühafizə orqanlarımız zəfər çalır, ədalət təntənə eləyir, sabitlik qol-budaq atır.

Dövlət idarələrinin publik şəxslərə çevrilməsi də sürətlənir, bəlkə yaxın zamanda dövlət büdcəsindən maliyyələşən heç bir dövlət idarəsi qalmadı. Hamını buraxırsan, gedib başlarını saxlasınlar. Özünümaliyyələşdirmə eləsinlər. Uzaq olsun, SSRİ-nin axır vaxtlarındakı kimi, "xozraşşot"a keçməyi biz görmüşük. O zaman hər bir dövlət idarəsinə hətta yardımçı təsərrüfat qayırmağa icazə verilmişdi. Görürdün metallurgiya zavodu donuz ferması açıb, məktəb kartof əkir, nə bilim, kosmik tədqiqatlar idarəsi metronun başında piştaxta qoyub "Bakuş" satır və sairə. Eh, indiki nəsil heç "Bakuş" nədir bilmir. Gör hara gəldik çıxdıq. Tarixini unudan millət məhvə məhkumdur, canım üçün.

Ancaq mən təklif edərdim publik hüquqi şəxs anlayışını camaatımızın daha yaxşı başa düşməsi üçün onu milli dilimizdə "bublik hüquqi şəxs" adlandıraq. Ağlamayana bublik yoxdur, yaxud, gedin özünüzə bublik qazanın mənasında. Örnək üçün, tələbə qəbulunu artıq publikə çevirəndən imtahanlar pullu olur, idarənin işçilərinin də bubliki həmişə vardır. Mən özüm bu dəqiqə məmnuniyyətlə bublik köşə yazarı olardım. Dünya media tarixinə bublik qəzetçiliyinin yaradıcısı kimi düşərdik. Bublik oxucularımız da ümid edirəm tapılacaqdır.

Əsas odur sabitlik olsun. İlf və Petrovun "12 stul" əsərində deyilən kimi: "Bunlar Volqaboyunun ac uşaqları, yetimlərdir". Hələ başqa fantastik sitat da vardı: "Çar rejiminin ağır irsidir". Keçən ilin axırlarında bir axmaq ata uşağını internetdə satışa çıxarmışdı. Halbuki, ilk növbədə dövlətə təklif edə bilərdi. Ağıl yoxdur axı. Dövlətimiz, milli hökumətimiz, müstəqilliyimiz dura-dura sən uşağı niyə başqasına satırsan?

Qazaxıstanda isə bu arada 79 qeyri-qanuni miqrant işçini tutublar. Hamısı azərbaycanlı imiş. Yadıma gəlir, keçən ay Kanada miqrasiya xidmətinin adından açıqlama da yayılmışdı, deyir minlərlə azərbaycanlı orada sığınacaq almışdır. Bunların içərisində... 7 milyonçumuz da varmış. Kanada qanunlarına görə oraya 600 min dollardan çox investisiya qoyan, ya da o dəyərdə ev-zad alan adama vətəndaşlıq verirmişlər. (Çox həvəsə gəlməyin, artıq 3 ildir o qanun ləğv edilib). Burda milyonçumuz rəsmən yoxdur, ancaq Kanadada varmış. Necə deyərlər, öz vətənində milyonçu olmazsan. Məsəlin orijinalında, əlbəttə, peyğəmbərdən söhbət gedirdi, ancaq bizdə elə milyonçu olmaq peyğəmbərlik kimi bir şeydir.

Bəs bu adamlar niyə işi, sığınacağı Qazaxistanda, Kanadada axtarırlar? Əşşi, fərqi nədir ki, hamısı türk yurdudur. Qazaxıstan məlumdur, Kanada da yerli hinduların dilində "kənd" deməkdir. Kanadaya gəlmək, kəndinə gəlməkdir. Eramızdan min illər qabaq Çukotkada iş axtaran azərbaycanlı kəndlilər Berinq boğazından keçərək Kanada ərazisində məskunlaşıblar.

**İşsizliyə görə müavinətin ləğvinə də bu aspektdən yanaşmalıyıq - ekspertlər demişkən. Hamıya bubliklər verilirsə, müavinət nəyə lazımdır?**



# Erməni konyakı və rus silahının zorən "dostluğu" - Putin layihəsinin canı Bakıdadır

## Azərbaycanla Rusiyanın bundan artıq yaxınlaşması bu il də mümkün olmayacaq, əgər...; **Rusiyanın nüfuzlu nəşri:** "Sərkisyan iki stul"da oturmaqla..."

**2018 -ci ilin Rusiya prezidenti Vladimir Putinin Avrasiya layihələri üçün də ciddi sınaq ili olacağı gözlənilir. O sırada Rusiyanın "kristallaşma mərkəzi" rolu oynadığı Avrasiya İqtisadi Birliyinin (AİB) taleyinə də aydınlıq gəlməlidir - hansı təşkilat ki, 2017-ci ildə ciddi daxili didişmə və çəkişmələrlə yadda qaldı. İki üzv dövlət - Qazaxıstan və Qırğızıstan arasında yaşanan, hələ də bitməyən gərginlik, Rusiya ilə Belarus arasında mal və xidmətlərin qiyməti ilə bağlı vaxtaşırı qeydə alınan söz dueli və nəhayət, Ermənistanın Avropa Birliyi (AB) ilə imzaladığı çərçivə sazişi buna bariz sübutdur.**

Rusiyanın aparıcı nəşrlərindən olan Gazeta.ru-nun bu mövzuya həsr elədiyi material bəzi "i"lərin üzərinə nöqtə qoymaq və Azərbaycanın müharibə vəziyyətində olduğu işğalçı Ermənistanın mümkün manevrlərini proqnoz eləmək baxımından diqqət çəkir (AİB-ə 5 ölkə - Rusiya, Qazaxıstan, Belarus, Qırğızıstan və Ermənistan daxildir).

**"Yeni Müsavat" məqalədən ən mühüm hissələri təqdim edir:**

"AİB-i daxili ziddiyyətlər yeməkdədir. Əhalinin bu layihəyə etimadı ilbəil azalır, Rusiyanın öz müttəfiqlərinə münasibətdə siyasəti isə sonuncuların maraqlarını nəzərə almır. Nəticədə Qazaxıstan kirildən latın əlifbasına keçir, Belarus idxal üçün sərhədləri açır, Ermənistan AB ilə tərəfdaşlıq sazişi imzalayır. Ekspertlərə görə, problem ondadır ki, Birlik üzvləri arasında ortaq, birləşdirici dəyərlər yoxdur. Üzv ölkələrdən hər biri böyük Avrasiya ailəsində özünəməxsus şəkildə xoşbəxt deyil və qarşılıqlı ortaq mövcudluğu yaxşılaşdırmaqla bağlı özəl təsəvvürə malikdir" - məqalədə deyilir.

Materialda mövzu ilə bağlı Rusiyadakı Siyasi Texnologiyalar Mərkəzinin vitse-prezidenti Aleksey Makarkinin fikir və proqnozlarına yer ayrılıb: "AİB-nin təməlinin yuyulması artıq göz önündədir. Postsovet respublikalarındakı hazırkı hakimiyyət elitaları nə vaxtsa Sov.İKP MK-da bir yerdə işləyib, partiya qurultaylarına birgə gediblər. Onları ortaq keçmiş birləşdirir. Yeni elitalar isə tamam başqa adamlardır. Ancaq əsas problem hər halda ortaq dəyərlərin olmamasıdır. AB-dən fərqli olaraq AİB-i ümumi liberal dəyərlər birləşdirmir və o, ya hərbi faktor üzərində bərqərardır, ya da Rusiyanın iqtisadi durumuna bağlıdır. Rusiya pul vermək imkanında olduqca onun Avrasiya ideyaları sevilir".

Məqalədə AİB ölkələri ilə heç bir quru sərhədi olmayan təcavüzkar Ermənistanla bağlı qeydlər də maraq doğurur. Müəllifə görə, hələ ki, Moskva üçün ən az başağrısını Ermənistan yaradır: "Daha doğrusu, lap yaxınlaradək - İrəvan AB ilə çərçivə sazişi imzalayanadək belə idi. Prezident Serj Sərkisyan "iki stul"da oturmağa çalışır: eyni zamanda Moskva və Brüsselə dostluq edir. Hazırda Moskva və İrəvanın möhkəm əlaqələri Ermənistanın Qarabağa görə Azərbaycanla qarşıdurmada təhlükəsizlik qarantları üzərində qurulub. Avropa Birliyi isə Azərbaycanla Ermənistanın maraqlarını dinc şəkildə ayırmaq məsuliyyəti götürməyə hazır deyil. Çünki Ermənistan hələ ki, AB-nin üzvü deyil. Yəni Rusiya-Ermənistan müttəfiqliyi hər şeydən öncə hərbi ittifaqdır, iqtisadi yox. Hər necə olmasa, Avrasiya güzəştləri və gömrük əngəllərinin götürülməsi erməni konyakının və digər erməni məhsullarının qiymətini aşağı salmağa heç cür imkan vermədi. Həmin erməni konyakı gürcü konyakından heç də ucuz deyil, hərçənd, Gürcüstan AİB-in üzvü deyil və hətta AB ilə vizasız rejimə malikdir".

Diqqətçəkicidir ki, nəşr İrəvan-Moskva münasibətlərini obrazlı şəkildə "konyakla neft-qazın müttəfiqliyi" adlandırıb. Hərgah, "konyakla rus silahının zorən dostluğu" adlandırsaydı, daha məntiqli olardı...

*****

Yuxarıda gətirilən faktlardan bir daha qənaət hasil olur ki, AİB daha çox Rusiyanın geosiyasi maraqlarından doğan və real perspektivi olmayan birlikdir. Bu gün o, məhz varlı və güclü, dünya okeanına çıxışa malik bir dövlət olaraq Azərbaycanın üzvlüyü ilə xeyli dərəcədə "ikinci nəfəs" qazana bilərdi. Bu haqda növbəti dəfə Rusiyanın xarici işlər naziri Sergey Lavrov son Bakı səfəri zamanı söyləmişdi. Rusiya XİN başçısı Azərbaycanın AİB-ə üzvlüyündən ölkəsinin məmnun olacağını dilə gətirmişdi.

Lakin rəsmi Bakının şərti var və bu barədə dəfələrlə deyilib: Ermənistanla eyni iqtisadi birliyi bölüşmək üçün işğal altındakı ərazilər azad edilməlidir. Yalnız o halda Bakı çökməkdə olan Putin layihəsini xilas edə bilər. Yəni öncə Qarabağ! Hələ ki, Kreml bu ədalətli istəyə hazır görünmür. Daha dəqiqi, İrəvana təzyiq göstərmək əzmi göstərmir.

**Deməli, Azərbaycanla Rusiyanın yaxınlaşması bundan artıq mümkün olmayacaq. Lakin AİB Kreml başçısının ən mühüm layihələrindən biri hesab olunur. Bu qurumun taleyi ilə bağlı artmaqda olan qeyri-müəyyənlik 2018-ci ildə pik nöqtəsinə çata, Putin Azərbaycanla bağlı yeni imperativ qarşısında qala bilər. Hər necə olmasa, AİB-in canı indi xeyli dərəcədə Bakıdadır.**

❑ Siyasət şöbəsi, "Yeni Müsavat"

# ABŞ-ın İran hədəfi - Vaşinqton "kartları" açır

## Ekspertlərdən maraqlı şərhlər

**İranda son bir həftədə baş verən hadisələr, mitinqlər bu ölkəni dünyanın diqqət mərkəzinə gətirib. İran hakimiyyəti ölkəni ABŞ və İsrailin qarışdırmağa çalışdığını bəyan edir. ABŞ-dan isə İranla bağlı qorxulu bəyanatlar gəlməkdədir.**



Məsələn, **ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Nikki Heyli** deyib ki, İranda Suriya ssenarisi təkrarlana bilər. Ardınca isə o bildirib ki, BMT Təhlükəsizlik Şurası buna yol verməməlidir: "İranda qanlı rejim xalqın dinc etiraz haqqını inkar edir. Biz buna yol verməməliyik".

Bu bəyanat səslənən gün ABŞ-ın Maliyyə Nazirliyi İrana qarşı sanksiyaları genişləndirib. Nazirliyin bəyanatında bildirilir ki, İran üzrə sanksiya siyahısına 3 fiziki şəxs və 5 təşkilat daxil edilib. Daha əvvəl Dövlət Departamentindən bildirilib ki, ABŞ İran rəhbərliyinin kütləvi etirazlarda iştirak edənlərə qarşı addımlarına görə bu ölkə əleyhinə sanksiyaların tətbiq edilməsi imkanlarını nəzərdən keçirir.

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan** isə dünən ABŞ və İsrail başda olmaqla, bir sıra ölkələrin İran və Pakistanın daxili işlərinə qarışmasının düzgün olmadığını bəyan edib. Ərdoğan deyib ki, İraq, Suriya, Liviya, Tunis, Sudan və Çad nümunəsi bu yanaşmanın səhv olduğunu ortaya qoyub. Türkiyə prezidenti qeyd edib ki, qarışıqlıq yaradılan ölkələrin hamısı İslam ölkəsidir: "Bu ölkələrdə zəngin yeraltı sərvətlər var, bu sərvətləri ələ keçirmək üçün addımlar atırlar. Bu həqiqəti Türkiyə xalqı və bütün digər xalqların bilməsi lazımdır. Buna görə də baş verən proseslərə baxışların dəyişməsi gərəkdir. Birilərini yalnız qoymaq istəyənlərin özləri yalnız qalacaq".

**Ərdoğan İran prezidenti Həsən Ruhani ilə telefonla danışdığını və H.Ruhaninin həftə sonuna qədər proseslərin normallaşacağını bildirdiyini açıqlayıb:** "Artıq dünəndən İranda proseslər normallaşmağa başlayıb. Həsən Ruhaninin aksiyaların İran xalqının demokratik haqları ilə bağlı olduğu barədə bəyanatı prosesləri yumşaldıb".

*ABŞ-dan İrana qarşı hədələrin artması, İranda rejim dəyişikliyi istəyinin ortaya qoyulması bir sıra sualları aktuallaşdırır. ABŞ İranda niyə dəyişiklik istəyir? Vaşinqtonun əsl niyyəti nədir? İranı bölmək, onun karbohidrogen yataqlarını ələ keçirmək, yoxsa İranda demokratiya qurmaq?*

**Politoloq Elşən Mustafayev** "Yeni Müsavat"a bildirdi ki, Qərb və ABŞ İranda rejim dəyişikliyini istəmələrinin əsas səbəbi kimi İran hakimiyyətinin dünya dövlətlərinə təhlükəli olmasını göstərirlər. Eyni zamanda İranın nüvə silahı yaratmaqda israrlı olması, Qərb, ABŞ tərəfindən terror qruplaşması kimi tanınan təşkilatlara silah və maliyyə yardımı etməsi ittihamları da səbəblər içərisindədir: "Burada görünməyən səbəblər də var ki, onlardan biri də böyük dövlətlərin enerji daşıyıcısı olan dövlətləri nəzarətdə saxlamaq istəkləridir. Bunun da yolu özlərinə strateji müttəfiq hesab oluna biləcək hakimiyyətlərin yaranmasından keçir. Obrazlı desək, bu hakimiyyətlər demokratik, yarıdemokratik, hətta avtoritar da ola bilər. Lakin əvvəlki rejimin tam əksi olmalıdır ki, insanlar bu dəyişiklikləri dəstəkləsinlər və onu həyata keçirtsinlər".



**Politoloqa görə, son 100 ildə heç bir böyük dövlət İranın bölünməsini və ya parçalanmasını istəməyib:** "Həm keçən əsrin əvvəlində həm də xüsusilə 40-cı illərdə bu bölünmə faktiki olaraq olmuşdu. Cənubda yaşayan Azərbaycan türkləri öz dövlətlərini qurmaq ərəfəsində idilər. Başda SSRİ olmaqla ABŞ və digər dövlətlər onları tanımadı, dəstək olmadılar, bir çox hallarda isə onlara maneçiliklər törətdilər. Sonradan həmin inqilabın amansızlıqla yatırılmasına da göz yumdular. Amma strateji məqsədlərə çatmaq üçün başqa yol qalmayanda dövlətlərin parçalanması variantına da üstünlük verilir. Hələ Azərbaycan türklərinin kompakt yaşadıqları əraziləri, onların arzularını bir kənara qoysaq, görürük ki, İranın İraqla çox böyük sərhədi var. Bu sərhədin hər iki tərəfində kompakt halda çoxlu sayda kürdlər yaşayır. İranda kürdlərin sayca 3-cü millət olduğunu, İraq kürdlərinin dövlət qurmaq istəklərini və buna doğru addım-addım getdiklərini nəzərə alsaq deyə bilərik ki, istənilən zaman bu kartdan istifadə oluna bilər. Ümumiyyətlə, uzunmüddətli müharibələr olmadan yeni dövlətlər yaranmayıb. Son olaraq yaranan dövlətlər Balkanlardakı vətəndaş müharibəsindən sonra Yuqoslaviyanın parçalanması ilə olmuşdu. Orada Rusiya-ABŞ qarşıdurmasında ABŞ qazanmışdı".

**Politoloq Şahin Cəfərli** isə bildirdi ki, ilk baxışdan paradoks kimi görünsə də, İsrail və ABŞ-ın indiki rəhbərliyi İranda Həsən Ruhaninin deyil, mühafizəkarların və Seyid Əli Xamneinin xəttinin qalib olmasında maraqlıdır: "Çünki onlar hesab edir ki, bu halda İran yenidən öz içinə qapanaraq Şimali Koreyanın cizgisinə yaxınlaşacaq, bu isə həm daxili gərginliyin səngiməsinə imkan verməyəcək, həm də İranın xarici dəstəyini minimallaşdıracaq. Belə olan təqdirdə, ABŞ-ın İranla imzalanmış nüvə sazişindən çıxmasına Avropa Birliyi hazırda olduğu kimi ciddi müqavimət göstərə bilməyəcək. Qərblə dialoqa açıq olan Ruhaninin İranındansa, Xamneinin təcrid olunmuş İranını küncə sıxmaq və cəzalandırmaq ABŞ üçün daha asandır. Tramp gəldikdən sonra İran siyasətinin dəyişəcəyi aydın idi və dəyişdi. Tramp ötən ilin sentyabrında BMT-dəki çıxışında İranla bağlı bunları demişdi: "Bütün dünya bilir ki, İranın gözəl xalqı dəyişiklik istəyir və bu ölkənin liderləri ABŞ-ın hərbi qüdrətindən daha çox, məhz öz xalqından qorxur". Bu sözlər ABŞ-ın İranda rejim dəyişikliyi siyasətinə qayıtdığına işarə idi. Mərkəzi Kəşfiyyat İdarəsinin başındakı şəxs də (Mayk Pompeo) bu siyasətin fəal tərəfdarıdır və onun ötən 1 illik müddətdə təşkilatın gücünü yenidən bu istiqamətə yönəltdiyini təxmin etmək olar. Ötən həftə İsrail mediası xəbər yaydı ki, noyabrın əvvəllərində ABŞ və İsrail kəşfiyyat-təhlükəsizlik strukturları İrana qarşı birgə fəaliyyət barədə razılığa gələrək bu məqsədlə 4 xüsusi qrup yaradıblar. Bu qruplar İranın nüvə, raket proqramlarının inkişafına, Suriyada və İraqda möhkəmlənməsinə, "Hizbullah"a dəstəyinə qarşı tədbirlər planı hazırlamalıdır. ABŞ-ın yeni milli təhlükəsizlik strategiyasında da İran terrorçu dövlət elan olunaraq hədəf taxtasına qoyulub. Bir sözlə, İran üçün çətin günlər başlayıb".

**Politoloq Natiq Miri** isə bildirdi ki, İranda baş verən etiraz aksiyalarına ABŞ və İsrail səviyyəsində dəstək təsadüf deyil: "ABŞ İranda daxili çatışma yaratmaqla, ölkənin Suriya və İraqda mövcud olan inqilab mühafizə qüvvələrinin etirazları söndürmək üçün tədricən İrana çəkilməsini istəyir. Belə olan təqdirdə quru cəhətdən Rusiya və Suriya rejiminə dəstək olan İran qüvvələrinin geri çəkilməsi ABŞ və onun dəstəklədiyi terrorçu təşkilatların işini yüngülləşdirəcək. Əslində məqsəd elə budur. Hesab edirəm ki, İran daha operativ hərəkət edərək prosesin qarşısını ala bilər. Görünən odur ki, etiraz aksiyaları getdikcə sakitləşir. Əgər İranda etiraz aksiyalarının konkret hədəfi olan siyasi rejimdə dəyişiklik olarsa, regionda çox böyük fəsadlar yarana bilər. Çünki bu gün regionda pis və ya yaxşı müəyyən bir nizam var. İranda vəziyyət qarışarsa, Suriyada bu gün davam edən münaqişə və İraqın da hələlik özünə gəlməməsi kontekstində bütövlükdə Yaxın Şərqin nizamı tamamilə dəyişə, bölgədə ABŞ-ın istədiyi yeni terror dövlətləri yarana bilər. Təbii ki, bu, İran, Türkiyə və regionda olan bütün İslam dövlətləri üçün böyük təhlükə vəd edir. Fikrimcə, İran müsəlman dövləti olmaqla yanaşı, həm də region və Yaxın Şərqdə bir balanslaşdırıcı güc mərkəzi olaraq fəaliyyət göstərir. Ona görə də İrandakı prosesi gözardı etmək qətiyyən doğru deyil".

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı** isə sosial şəbəkədə qeyd edib ki, İranda baş verən hadisələr ciddi təhlükələrdən xəbər verir: "Qüdsü İsrailin paytaxtı elan edənlər bu gün İranı dağıtmaq, sabah Türkiyəni çökdürmək istəyirlər. Az sonra Pakistan növbəti qurban ola bilər. Çünki islam dünyasına olan basqıların qarşısında dayanan bu 3 ölkədir. Onların kifayət qədər gücü var ki, düşmənlərin planlarına mane olsunlar. Onları sıradan çıxardıqdan sonra bütün islam dünyasını asanlıqla diz çökdürəcəklər. Azərbaycan kimi kiçik ölkələr isə ayaq altında qalacaqlar. Kim düşünürsə ki, İranı dağıdıb, onun yerində Azərbaycan dövləti yaradacaqlar, çox böyük yanlışlığa yol verir. İranı dağıda bilsələr, orda Misir, İraq, Liviya və Suriyaya oxşar bir şey yaradacaqlar, əmin ola bilərsiniz. Ona görə də İranda kimlərinsə fitvası ilə küçələrə çıxanlar bunu fikirləşsinlər, başqalarının əlində oyuncağa çevrilməsinlər. Azərbaycan, İran, Türkiyə, Pakistan bir yerdə olmalı, hamı da bu birliyi təbliğ etməlidir. Suriya böhranı zamanı biz Türkiyə və İranın bir mövqedən çıxış etməsini təbliğ edirdik, hətta bir dəfə İstanbulda konfransda bu mövqedən çıxış etdim, az qaldılar məni düşmən elan edələr. Amma sonradan Türkiyə və İran bir mövqedən çıxış edib, Suriyanı xilas etdilər. Suriya ayaq üstə qaldı, İran və Türkiyənin gücünü görən Rusiya onların yanında yer aldı, ABŞ da onların gücü ilə hesablaşmalı oldu. Eyni mənzərəni İraqla bağlı da gördük, kürdləri qaldırıb İraqı məhv etmək istəyirdilər, İranla Türkiyənin eyni mövqedən çıxış etməsi vəziyyəti tam dəyişdi".

❏ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 2 (6891) 6 yanvar 2018

# Neftlə bağlı bədbin proqnozlar doğrulmadı

## Qiymətlər 70 dolları ötə bilər...

**Neftin qiyməti bütün bədbin proqnozları geridə qoyaraq 70 dollar səviyyəsinə doğru irəliləyir. "Brent" markalı neftin bir bareli 68 dollara yüksəlib. Bu artım ən çox neft istehsal edən, eyni zamanda iqtisadiyyatı neftdən asılı olan ölkələri sevindirir. Bəs görəsən, artım hansı amillərə dayanır və nə dərəcədə davamlı olacaq? 2018-ci il üçün neftin orta qiyməti neçə dollar proqnozlaşdırılır? Artım davam edərsə Azərbaycan dövlət büdcəsində neftin qiyməti artırıla bilərmi?**



"Yeni Müsavat"ın suallarını cavablandıran **Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban** bildirdi ki, hazırda bazara təsir edən əsas amillər əsas boru kəmərlərində baş verən problemlərlə bağlıdır: "Neftin bahalaşmasına təsir göstərən bir neçə amil oldu ki, son bir həftə ərzində qiymətlər 65-70 dollar dəhlizində var - gəl edir. Buna təsir edən amillər nə idi? Ötən ilin son hərracında "Brent" markalı neft 66,62 dollar göstəricisi ilə ili başa vurdu. Neftin qiymətinin 65 dollar həddini keçməsi Şimal dənizindən 80 mənbədən gündəlik 450 min barel nefti Böyük Britaniyaya nəql edən Forties neft boru kəmərində sızma aşkarlanması ilə əlaqədar idi. Bu səbəbdən həmin boru kəməri təmirə dayandırıldı ki, ekoloji fəsadlar olmasın. Nəticədə neft birdən-birə 62 dollardan 65 dollara yüksəldi. Sonrakı proseslər yenə də boru kəmərlərində olan hadisələrlə əlaqədar idi ki, bu da qiymətin daha 1 dollar artımına səbəb oldu. Söhbət Liviyadakı bir neçə yataqdan Aralıq dənizinə terminala boru kəmərindəki diversiyadan gedir. Bu da bazar iştirakçılarını çox təşvişə saldı. Nəticə etibarilə neftin qiyməti 66 dollar baryerini üstələdi. Bu notlarla 2017-ci il yekunlaşdı, 2018-ci ilin gəlişi isə Amerika Neft İnstitutunun yanvar ayının 3-də açıqladığı hesabatla başladı ki, bu ABŞ-da həftəlik neft ehtiyatlarının 5 milyon barel azalması ilə bağlı idi. Bildiyiniz kimi, ABŞ-da həm hasilat göstəriciləri, həm də ehtiyatlarla bağlı göstəricilər, həm də buruqların sayı bazar iştirakçıları tərəfindən çox həssas yanaşılan bir mövzudur. Ona görə də, bu bazar iştirakçıları arasında ilk hərracdaca təsirini göstərdi və ona gətirib çıxartdı ki, neftin qiyməti 68,21 dollara qədər artdı. Ancaq bir gün sonra Amerika enerji Administrasiyası daha dəqiq rəqəmlər səsləndirməli idi və həmin axşam qeyd edildi ki, azalma 5 milyon bareldən bir qədər aşağıdır. Bununla da neftin qiymətində enmələr müşahidə olundu. Bu enmələr davam edir və qiymətlər 67,44 dollara qədər düşüb. Lakin 67 dollar da böyük bir göstəricidir. Çünki 2015-ci il mayın əvvəlindən bu yana birjalarda bu cür qiymət qeydə alınmayıb. Çoxları hərraclarda neftin 70 dollar göstəricisini aşmasını gözləyir".

**Ekspertin sözlərinə görə, cari il üçün proqnozları orta qiymət səviyyəsində götürsək, ötən illə müqayisədə daha pozitivdir:** "Dünya iqtisadiyyatının artım tempi əvvəlkindən daha yaxşıdır. Dünya miqyasında neftin istehlakı təqribən 1,2-1,8 milyon barel arasında artıma doğru getməlidir. Bundan başqa, "bunker nefti" deyilən bir anlayış var ki, onun da azalması davam edəcək. Hər 3 amil neftin qiymətlərinin artımına işarə edir. Azalma ilə bağlı hələ ki elə bir təlaş doğuracaq xəbərlər yoxdur. Neftin qiyməti 70 dolları ötə də bilər, müəyyən bir zaman kəsimində 75-ə də qalxa bilər, hətta 45 dollara da düşə bilər. Necə ki, ötən il orta qiymət 54 dollar oldu, yay aylarında 42 dollara düşdü, ilin sonunda isə 66 dollara qalxdı. Əsas qiymət orta qiymətdir. Cari ildə orta qiymət kimi neftin bir barelinin 56-57 dollara olacağı proqnoz edilir. Proqnozlarla bağlı ilk korreksiya aprel ayından etibarən edilir. Çünki birinci rübün yekunları açıqlanır, bundan sonra dünya iqtisadiyyatının, şirkətlərin iqtisadi-maliyyə göstəriciləri təhlil edilir, onların proqnozlara nə dərəcədə uyğun olub-olmaması müəyyən edilir, daha sonra ilkin korrektələr edilir".

*Bəs qiymətlər bu templə bahalaşmaqda davam etsə, ilin birini yarısından sonra neftin qiyməti ilə bağlı Azərbaycan dövlət büdcəsində dəyişiklik edilə bilərmi?*

**Bu sualı cavablandıran İlham Şaban bildirdi ki, hazırda dövlət büdcəsində neft 45 dollardan götürülüb və artırılması gözlənilmir:** "Əgər biz 2017-ci ilin praktikasını nəzərə alsaq, 40 dollardan götürülmüşdü, ancaq orta qiymət 54-55 dollar oldu. Bununla bağlı Dövlət Neft Fondunun büdcəsində və xərcləmələr hissəsində oktyabr ayında dəyişikliklər oldu. Bir məqamı nəzərə almaq lazımdır ki, bu il Azərbaycanda neft hasilatı azalmaqda davam edəcək. Bu o deməkdir ki, neftin bahalaşması reallıqda bizdəki bu azalmanı kompensasiya edəcək və gəlirlərin ötən ilki səviyyədə qalmasına kökləyəcək. Biz ona ümid edə bilərik. 2017-ci ildə dövlətin mənfəət nefti 6 milyarddan bir qədər artıq proqnoz edilir. Bu ayın sonunda daha dəqiq məlumat olacaq. 2018-ci ildə neftin qiyməti ötən illə müqayisədə daha çox olsa da, hasilat azaldığı üçün biz ancaq ona ümid edə bilərik ki, ötən ilki səviyyəni qoruyub saxlaya bilək. Ötən illə müqayisədə cari il üçün büdcə xərcləri 20 faiz artırılıb. Onsuz da hökumət bütün bunları proqnoz edib. Neftin qiyməti 100 dollardan aşağı düşəndən sonra bu il ilk dəfə hökumət kapital və tikinti xərclərini artırıb. Öncəki illərdə isə daim azalma siyasəti yürüdülmüşdü. Həmçinin kifayət qədər böyük büdcə kəsiri də var ki, əlavə gəlirlər bu büdcə kəsirinin örtülməsinə yönələ bilər".

❑ **N.LİFTİYEVA**

# Manat bu il daha da möhkəmlənəcək - ekspert rəyi

## "Neftin cari qiyməti imkan verir ki, manatı elə cari məzənnə səviyyəsində saxlasın"

**Dünya bazarında neftin bahalaşması Azərbaycan neftinin də son günlərdə 70 dollara qədər yüksəlməsinə səbəb olub. Belə ki, ötən gün "AzeriLight" markalı neftin 1 barelinin qiyməti isə 1,30 dollar artaraq 69,89 dollar olub. Bu isə neftin bir bareli üçün ölkəyə 119 manat gəlir gəlməsi deməkdir. Xatırladaq ki, bir neçə il əvvəl 1 bareli 110 dollar satılsa da, bu manatla ifadədə 86 demək idi. Lakin hazırki rəqəmlər milli valyuta ilə gəlirlərin daha yüksək olduğunu deməyə əsas verir.**



Neft qiymətlərindəki bu cür gözlənilməz sıçrayış manatın taleyi ilə bağlı proqnozlara da təsir edib. Əgər əvvəllər insanları "Manat nə qədər ucuzlaşa bilər?", "Manatın məzənnəsini qoruyub saxlamaq mümkün olacaqmı?" tipli suallar narahat edirdisə, indi manatın bahalaşması gündəmdədir.

*Neft gəlirlərinin yüksək olduğu dövrdə manatın dollara olan məzənnəsini 0.78 səviyyəsində saxlayan hökumət, yenidən bənzər addım atararaq, milli valyutamızı bir qədər möhkəmləndirə bilərmi?*

"Yeni Müsavat" bu sualla iqtisadçı ekspertlərə ünvanlayıb.

**İqtisadçı ekspert Əkrəm Həsənov** qəzetimizə açıqlamasında bildirib ki, neftin qiyməti 100 dollar olsa da, manatın böyük faizlə bahalaşması ehtimalı çox aşağıdır: "Ölkədəki iqtisadi vəziyyət də pul kütləsini artırmağa sövq edir ki, canlanma olsun. Deməli, manata təzyiq arta bilər. Bu və digər məsələlərə görə hökumət manatı bahalaşdırmaqda maraqlı deyil. Sadəcə neftin cari qiyməti imkan verir ki, manatı elə cari məzənnə səviyyəsində saxlasın. Amma onu da unutmayaq ki, neftin qiymətinin düşməsi ehtimalı da həmişə var".

**İqtisadçı ekspert Fikrət Yusifov** isə manatın bahalaşması yolverilməz addım kimi qiymətləndirib: "Öncə onu bilmək lazımdır ki, neftin qiymətlərində baş verən bahalaşmanın əsas səbəbi dünya iqtisadiyyatının neftə olan tələbatının kəskin artması ilə bağlı deyil. Bunun əsas səbəbləri içərisində Şimal dənizindən 80 mənbədən gündəlik 450 min barel neft nəql edən Forties neft boru kəmərlərinin təmirə dayandırılmasıdır. Eyni zamanda Amerika Birləşmiş Ştatlarında neft ehtiyatlarının həcminin azalmasına dair məlumatlar və s. amillər bu gün neftin qiymətlərinin artmasına səbəb olur. Lakin bu prosesin nə qədər davamlı olacağını demək mümkün deyil. Neftin qiymətlərinin necə dəyişməsindən asılı olmayaraq manatın yenidən bahalaşmasına yol verməmək olmaz. Bu qiymətlərin bahalaşmasının müvəqqəti olduğu heç şübhəsizdir. Qiymətlərin qalxmasına güvənib, manatı bir dəfə bahalaşdırdıq, qiymətlər kəskin aşağı düşəndə isə bunun acı nəticələrini yaşadıq. İkinci dəfə bu səhvi təkrarlamaq olmaz. Digər tərəfdən manatın bahalaşması ixraca mənfi təsir edəcək. Biz ötən ildən etibarən manatın normal bir dəyərdə olması səbəbindən qeyri-neft sektorundan ixracın həcmini artırmağa başlamışıq. Belə bir dönəmdə manatı yenidən bahalaşdırsaq, bu ixraca ciddi zərbə ola bilər".

Bu il manatın dollara nisbətdə məzənnəsinin möhkəmlənə bilməsi ehtimalına **iqtisadçı ekspert Vüqar Bayramov** da münasibət bildirib: "Maliyyə naziri manatın möhkəmlənməsi üçün təzyiqlərin olduğunu bildirib. Bir müddət öncə isə Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramının sifarişi ilə Niderlandın ING maliyyə holdinqinin tərəfdaşı ACT LLC humanitar təşkilatı tərəfindən bu ay keçirilən sorğu və hazırlanan hesabatda Azərbaycan milli valyutasının dollara nisbətən kursunun 2018-ci ildə 1.59-dək yüksələcəyi qeyd olunmuşdu. Mərkəzi Bankın mövqeyi isə dəyişməyib: əgər qlobal şoklar baş verməzsə o zaman 2018-ci ildə il manat dəyər itirməyəcək. Deməli, bu il manatın məzənnəsi daha çox neftin qiymətindən asılı olacaq. Amma bütün hallarda manatın yenidən möhkəmlənməsi qeyri-neft ixracatı və iqtisadiyyatın diversifikasiyası baxımından arzuolunan deyil. O baxımdan, iqtisadi baxımdan mövcud məzənnəni qoruyub saxlamaq daha məntiqi olardı".

**İqtisadçının sözlərinə görə, son proseslər də göstərir ki, Mərkəzi Bank manatın yenidən kəskin möhkəmlənməsində maraqlı görünmür:** "Baş bank üçün mövcud məzənnəni qoruyub saxlamağın daha prioritet olduğu hiss edilir. Əslində hökumətə təqdim etdiyimiz təkliflərdə manatın möhkəmlənməsi deyil, mövcud məzənnənin qorunub saxlanması və bunun müqabilində 2015-ci ildə hazırladığım "üç tərəfli" mexanizm əsasında xarici valyutada kreditləri olan vətəndaşlarımıza bu il kompensasiyaların verilməsi öz əksini tapıb. Bu bir tərəfdən, Azərbaycan qeyri-neft məhsullarının rəqabət qabiliyyətinin qorunub saxlamasına gətirib çıxarar, digər tərəfdən isə problemli kreditlərin sağlamlaşdırılması, əhalinin banklara olan borc öhdəliyinin kəskin azaldılması baxımdan ciddi irəliləyişə səbəb olar. Bu ilki məzənnəyə bir daha toxunsaq, manatın yenidən möhkəmlənməsi iqtisadiyyatın şaxələnməsi ilə bağlı prioritetlər baxımdan arzuolunan olmasa da son qərarı Mərkəzi Bank deyəcək. Baş bank isə hələlik milli valyutanın möhkəmlənməsində maraqlı görünmür".

❑ **NƏRGİZ**

YENİ MÜSAVAT
N 2 (6891) 6 yanvar 2018

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Ermənistan işğalla inkişaf arasında - ölkə əhalisi sürətlə yoxsullaşır

## Erməni deputat: "Ölkədən fəlakətli miqyasda köç baş verməkdədir"; **Rusiya nəşri:** "2018-də Ermənistan Rusiyanın "kürək" vermədiyi müharibəyə tuş gələ bilər"; Qarabağa dair qətnamə layihəsi BMT-yə təqdim ediləcək

**İşğalçı Ermənistan bu ildən parlamentli üsul-idarəyə keçəcək. 2018-ci ilin aprelində ölkə parlamentinin seçəcəyi yeni prezident və baş nazirin səlahiyyətləri artıq indiki kimi olmayacaq. Baş nazir daha böyük səlahiyyətlər əldə edəcək, prezident isə Ermənistanın formal dövlət başçısı olacaq.**



Ancaq əksər siyasi analitiklərə görə, idarəçilikdəki bu dəyişiklik nə ölkəyə, nə də erməni xalqına yaxşı heç nə vəd eləmir. Çünki Ermənistanın mövcud ağır iqtisadi-siyasi durumu onun Konstitusiya quruluşu ilə bağlı deyil, müstəsna olaraq Azərbaycanla müharibə vəziyyəti və Rusiyadan vassal asılılığı ilə birbaşa ilgilidir.

"Ermənistanda kimin baş nazir olmasından asılı olmayaraq, olduqca mürəkkəb problemlərin həllindən o, qaça bilmıəyəcək. Problemlərdın biri də əhalinin böyük bir qismində Rusiya və onun kapitalı timsalında "işğalçı", "istismarçı", "Azərbaycana silah satan düşmən" obrazının aradan qaldırmaqdır". Musavat.com-un məlumatına görə, bu barədə Rusiyanın Rosbalt nəşrindəki analitik məqalədə deyilir.

Məqalə müəllifinin qənaətincə, Ermənistan hökuməti xüsusən də əhalinin qərbyönlü əhvalı və oliqarxik sistemdən narazılığı fonunda çətin ki, bu yüklə bacarsın. "Hakimiyyət Rusiya və Qərbdən maksimum divident qoparmaq, "iki stul"da oturmaq və bu zaman ölkədə nisbi sabitliyi qorumaq kimi inadlı istəyində bir çox şeyləri nəzərə almayıb. Bu aşkar "boşluq" erməni hakimiyyəti üçün artıq elə bu il ciddi əks-səda verə bilər - anti-Rusiya ovqatının güclənməsi ilə. Buna isə hansısa formada Azərbaycanla müharibə təhlükəsi reaksiya verməli olacaq. Ermənistan Rusiyanın "kürək" vermədiyi müharibəyə tuş gələ bilər" - məqalədə qeyd edilir.

*****

Bu arada həll olunmamış Dağlıq Qarabağ münaqişəsinə və işğal faktına görə blokada rejimində olan işğalçı ölkədə sosial-iqtisadi durum daha da ağırlaşmaqdadır. Yanvarın 1-dən artıq bir çox gündəlik tələbat mallarının qiyməti yenidən artıb. Ermənistan parlamentində "Tsarukyan" blokunun üzvü, Avropaya inteqrasiya üzrə daimi komissiyanın sədri Naira Zoqrabyanın bu xüsusda fikirləri diqqət çəkməklə yanaşı, ibrətamizdir.



"Yeni Müsavat" erməni qaynağına istinadən verdiyi məlumata görə, deputat deyib: "Ən vacib gündəlik ərzaq məhsullarının qiymətlərində artım "olimpiya tempi" ilə davam edir. Hökumətin bununla bağlı siyasəti tamamən effektsizdir və nəyə gətirəcək, mən bunu deməkdə çətinlik çəkirəm. Ölkədən fəlakətli miqyasda emiqrasiya baş verir. Kasıbçılıq və işsizlik səviyyəsi isə yüksək templə artır".

Deputatın sözlərinə görə, bütün bunların hansısa həlli olmalı və situasiya yumşaldılmalıdır. "Xalqın küçəyə çıxacağını söyləmək çətindir. Nədən ki, son illər ölkədə insanların müəyyən mənada daxili apatiyası hökm sürür: insanlar "ayaqları" ilə etiraz edirlər. Yəni istənilən üsullarla ölkəni tərk edib gedirlər. Baş verənlərin emiqrasiyanı gücləndirəcəyi heç bir şübhə doğurmur", - deyə o əlavə edib.

Xatırladaq ki, Ermənistanın 2018-ci il üçün dövlət büdcəsində defisit 4% nəzərdə tutulub və inflyasiya fonunda əmək haqlarının pensiya və müavinətlərin hər hansı artımı planlaşdırılmır. Sadalanan rəqəmlər və ermənilərin özlərinin də etiraf elədiyi sərt reallıqlar bir daha düşmən ölkənin işğalla təminatlı güzəran arasında seçim etməli olduğunu bariz şəkildə göstərir.

Başqa sözlə, bir daha qənaət hasil olur ki, müharibə vəziyyəti qaldıqca Ermənistan əhalisinin durumu nəinki yaxşılaşmayacaq, üstəlik, ölkənin olan-qalan əmək qabiliyyətli əhalisi də Naira Zoqrabyanın sözləri ilə desək, "ayaqları" ilə etiraz edəcək - yəni Ermənistanı tərk edərək gedəcək. Seçim həmişəki kimi, işğalçı tərəfin, onun rəhbərliyinindir.

*****

Dağlıq Qarabağ ixtilafının həlli isə məhz rəsmi İrəvanın təxribatçı mövqeyindən uzanır. Ermənistan rəsmilərinin ilsonu verdikləri bəyanatlar bir daha göstərir ki, işğalçıya ciddi təzyiqlər göstərilməyincə, o, konstruktiv danışıqlara hazır olmayacaq.

Bu arada Moldova da problemin həllinə öz töhfəsini verməyi qərara alıb (Trend). Belə ki, Moldova Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat - GUAM-ın 2018-ci il üzrə fəaliyyətdə olan sədri kimi "GUAM məkanındakı uzun sürən münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişaf üçün nəticələri barədə" birgə qətnaməni BMT-nin Baş Assambleyasının növbəti iclasında irəli sürəcək. Bu barədə Moldovanın Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyi 2018-ci il üçün ölkənin GUAM sədrliyi ilə bağlı bəyanatında bildirib.

Bəyanatda deyilir ki, həmçinin Moldova GUAM Azad Ticarət Zonasının fəaliyyətini təmin etməyə və təşkilatın investisiyaya açıq bir platformaya çevrilməsinə çalışacaq.

İqtisadi prioritetlər çərçivəsində, Moldova iqtisadiyyat, nəqliyyat, energetika, enerji təhlükəsizliyi, turizm sahələrində GUAM-ın sahələr üzrə əməkdaşlığın gücləndirilməsi üzrə Fəaliyyət Planı əsasında əsas sahələr üzrə qarşılıqlı əlaqələri aktivləşdirməyə, GUAM-ın nəqliyyat və tranzit potensialını artırmağa, habelə GUAM nəqliyyat dəhlizinin inkişaf konsepsiyasını həyata keçirmək üzrə müvafiq Fəaliyyət Planını hazırlamağa çalışacaq.

Moldova həmçinin, "GUAM +" formatında xüsusilə də Avropa İttifaqı və ATƏT ilə beynəlxalq əməkdaşlığı gücləndirmək və genişləndirmək, "ənənəvi" tərəfdaşlar - ABŞ, Yaponiya və Vişeqrad qrupu ilə konstruktiv dialoqun təşviqini davam etdirəcək.

**Qeyd edək ki, GUAM-da sədrlik Moldovaya yanvarın 1-dən keçib. Ümid edək ki, özü də dağıdıcı separatizmin ağır nəticələrini yaşayan Moldovanın BMT-yə təqdim edəcəyi qətnamə Dağlıq Qarabağ probleminin həllinə də hansısa pozitiv stimul, sənədlə bağlı səsvermənin nəticələri isə bəzi pozitiv qənaətlərə gəlməyə əsas verəcək...**




# Orduya Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

**Silahlı Qüvvələrə Yardım Fonduna 1 yanvar 2018-ci ilədək 88.008.970,18 AZN, 212.873,88 ABŞ dolları, 9536,0 avro və 5000,0 rubl vəsait daxil olub. Bu barədə Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.**

Qeyd edək ki, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 saylı fərmanı ilə yaradılıb. Fond Azərbaycan Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan olunmamış digər daxilolmalardır. Fondun əsas vəzifəsi Azərbaycanın etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

YENİ MÜSAVAT
N 2 (6891) 6 yanvar 2018

**Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının 2017-ci il 22 dekabr tarixli qərarına əsasən “DəmirBank” Açıq Səhmdar Cəmiyyətinin lisenziyası dekabrın 23-dən ləğv edilib.**

# “Dəmirbank”da pulu olanlar nə etsin...

## Bağlanan banklara krediti necə qaytarmaq olar; **mütəxəssis:** “Ləğvedici məlumat göndərməyibsə...”

Palata bu qərarı bankın məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimumdan aşağı olduğuna və məcmu kapitalın adekvatlıq əmsalının qanunvericiliklə nəzərdə tutulmuş 3 faizdən az olduğuna, eləcə də kreditorları qarşısında olan öhdəliklərini yerinə yetirə bilmədiyinə və “Banklar haqqında” qanundan irəli gələn tələblərə əsasən qəbul edib.

Qeyd edək ki, “Dəmirbank” 2017-ci il 3-cü rübün yekunlarına əsasən aktivlərinin həcminə görə 31 bank arasında 15-ci, kredit portfelinə görə 12-ci, depozit portfelinə görə 20-ci yerdə qərarlaşıb. Ötən ilin doqquz ayının yekunlarına görə, bankın fəaliyyətində 20 milyon manatdan artıq zərər yaranıb, balans kapitalı minimum normativdən təxminən 2 dəfə az olub. Aktivlər üzrə mümkün zərərin ödənilməsi üçün 53 milyon manata yaxın ehtiyat yaradılıb ki, bu bankın aktivlərinin 10 faizindən bir az çoxdur.

Verilən məlumata görə, “Dəmirbank” ASC Əmanətlərin Sığortalanması Fonduna(ƏSF) üzv bankdır və əhalinin bu bankda qorunan əmanətləri fond tərəfindən ödəniləcək. Palatanın qərarına əsasən, banka müvəqqəti inzibatçı təyin edilib.




Dünən Əmanətlərin Sığortalanması Fondu ləğv prosesində olan “Dəmirbank” ASC-nin kreditorlarına müraciət edib. Müraciətdə qeyd olunur ki, Bakı Apellyasiya Məhkəməsi tərəfindən dekabrın 27-də “DəmirBank” ASC-nin müflis elan edilməsi və barəsində iflas proseduruna başlanılması haqqında qərar qəbul olunub, Əmanətlərin Sığortalanması Fondu həmin gündən banka ləğvedici təyin edilib: “"Banklar haqqında" qanunun tələbləri nəzərə alınmaqla, müflis banka qarşı tələblər bankın müflis elan olunmasına dair məhkəmə qərarının kütləvi informasiya vasitələrində ilk dəfə dərc edildiyi gündən 60 təqvim günü ərzində ləğvedici tərəfindən yazılı şəkildə qeydə alınmalıdır. Kreditorlardan xahiş olunur ki, bu elanın dərc edildiyi gündən 60 gün ərzində “DəmirBank”ın ləğvedicisi Əmanətlərin Sığortalanması Fonduna müraciət etsinlər”.

Xatırladaq ki, lisenziyasının geri alınması qərarı elan olunan gündən “Dəmirbank”ın bütün növ kartları üzrə əməliyyatlar da dayandırılıb ki, bu da əmək haqqı, kredit kartlarının sahiblərini çətin durumda qoyub. “Yeni Müsavat”a müraciət edən vətəndaşların verdiyi məlumatdan aydın olur ki, çətin durumda qalanlar təkcə bank kartlarının sahibləri deyil, həm də bankdan kredit götürənlərdir. Onlar kreditlər üzrə ödənişləri hara edəcəklərini bilmədikləri üçün qəzetimizdən bu barədə məlumat almağa çalışırlar. **Bank sahəsi üzrə ekspert, “Standard Bank” Kreditorlar Şurasının sədri Əkrəm Həsənov**un verdiyi məlumata görə, əgər ləğvedici - yəni ƏSF tərəfindən kredit götürən vətəndaşlara hər hansı əlavə məlumat verilməyibsə, onda ödənişlərini əvvəlki qaydada “Dəmirbank”ın filial və şöbələrində həyata keçirə bilərlər: “Bank hələ ləğv edilməyib. Onun lisenziyası geri alınıb, müflis elan edilib. Bankın ləğv edilməsi prosesi ən azı bir neçə il davam edəcək. Ola bilsin ki, prosesin gedişində kreditlər başqa banklara ötürülsün, bu zaman da borclu vətəndaşlara mütləq məlumat veriləcək. Məndə olan məlumata görə, hələlik yalnız ipoteka kreditləri başqa banklara ötürülüb. Bunun özü əslində qanunsuzdur, amma artıq ediblər. Ümumiyyətlə, banklar bağlanan kimi İpoteka Fondu kreditlərini başqa banklara keçirir”.

**Ə.Həsənov onu da bildirdi ki, bankların ləğv olunması dünya praktikasında da uzunmüddətli proses hesab olunur:** “Ləğv olunan bankın bütün əmlakı satılmalıdır, bütün kreditləri toplanmalıdır, əmanətlər qaytarılmalıdır. Yəni bu, uzun illər tələb edən bir işdir. Dünyada da belədir. Məsələn, Almaniyada bir bankın ləğvi 70 il vaxt aparmışdı. Bu da onda irəli gəlir ki, kimlərsə bankdan uzunmüddətli dövr üçün kredit götürmüş olur. Onu krediti vaxtından əvvəl bağlamağa məcbur etmək mümkün deyil. Buna görə də ləğvedici kreditlərin tam qaytarılmasını gözləməlidir”.

**Mütəxəssisin dediyinə görə, bağlanan banklardan alınan kreditlərin başqa banklara ötürülməsi də mümkündür:** “Bu, ləğvedici ilə digər banklar arasında razılaşma ilə baş verir. Məsələn, bağlanan bankın kimdəsə 10 min manat krediti varsa, onu 8-9 min manata satırlar başqa banka. Yəni bağlanan bank bu yolla ləğvetmə prosesini tezləşdirir, alan bank isə 1-2 min manat xeyir götürür. Bu, dünya təcrübəsidir. Azərbaycanda onun tətbiqi çətin alınar. Çünki kreditlərin böyük hissəsi problemlidir, girov təminatı zəifdir və sair. Xüsusilə "Dəmirbank"da problemli kreditlər xeyli yüksək idi. Bu şəraitdə digər banklar belə kreditləri almaqda maraqlı olmurlar. Belə də ola bilər ki, bağlanan bankın kreditləri dəyərindən çox aşağı məbləğə başqa banklara ötürülsün. Bu, açıq korrupsiya əməli olar və bağlanan bankların kreditorlarına belə məsələləri diqqətdə saxlamağı tövsiyə edirəm".

❑ **DÜNYA**
**“Yeni Müsavat”**

# Bəzi restoranlarda tütün qadağasına məhəl qoyulmur

## Bir çoxları yeni qanunun tələblərinə əməl etmir

**Ötən ilin dekabr ayının 29-da Prezident İlham Əliyev “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” qanunu imzalayıb. İmzalanan qanun Azərbaycan Respublikası əhalisinin sağlamlığının qorunması, sağlam həyat tərzinin təbliği, uşaqların və gənclərin sağlam böyüməsi və inkişafı, zərərli vərdişlərə aludəçiliyin profilaktikası, tütün məmulatlarının istifadəsinin və tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirlərinin azaldılması istiqamətində fəaliyyətin hüquqi əsaslarını müəyyən edir.**



Ölkə ərazisində tütündən istifadənin məhdudlaşdırılması və tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirinin azaldılması məqsədi ilə qapalı məkanlarda, bir sıra ictimai yerlərdə tütündən istifadə edilməsi qadağan olunub.

*Tütün məmulatlarının istifadəsinə qoyulan qadağalardan sonra paytaxt Bakıda vəziyyət necədir? Restoran və kafe sahibləri bu qanundan sonra bir nəticə çıxarıbmı?*

“Yeni Müsavat” qəzetinin müxbiri Bakıdakı restoran və kafelərdə olub, oradakı vəziyyətlə maraqlanıb. Yolumuzu paytaxt sakinlərinin ən çox toplaşdığı, istirahət üçün üz tutduğu “İçərişəhər”dən saldıq.

Öncə Qız Qalası ətrafında yerləşən, restoran xidməti göstərən məkanlara baş çəkdik. Ərazidə olduğumuz zaman öyrəndik ki, həmin ətrafda insanların ən çox axın etdiyi **“Çay bağı-145"** adlanan restorandır. Xaricdən baxdıqda müştəriyə xoş görünsə də, əslində mənzərə bir başqadır. Restoranın qapısını açıb içəriyə daxil olan zaman "tüstülü mənzərə"nin şahidi olduq. Tütün qoxusu restoranın girişindəcə hiss olunur. Pilləkənlə yuxarı qalxdıqca siqaret və qəlyan iyindən adamın başı dumanlanır. 4 mərtəbədən ibarət olan restoranın əvvəlcə ikinci mərtəbəsindəki vəziyyəti müşahidə etdik.

Təqribən 60 kvadratmetrlik yerdə 30-a yaxın müştəri var idi. Onların arasında ailələr də gözə dəyirdi. Bir masa ətrafında əyləşən 10-a yaxın gəncin çəkdiyi qəlyanın tüstüsü hər tərəfi bürümüşdü.

Restoranda olduğumuz zaman bir məqamın da şahidi olduq. Müştərilərin sifariş verdiyi qəlyanlar restoranın birinci mərtəbəsində hazırlanır. Ofisiantlar qəlyanları aşağı mərtəbədə alışdıraraq, tüstülədə-tüstülədə 4-cü mərtəbəyə qaldırırlar. Dəhlizləri bürüyən tütün qoxusundan nəfəs kəsilir.

**Müştəri qismində restoranın inzibatçısına yaxınlaşıb, siqaret və qəlyan çəkilməyən bir yerdə əyləşmək istədiyimizi bildirdik. Lakin inzibatçı hazırda belə bir otağın olmadığını bildirdi. Yalnız günorta saatlarında mümkün olduğunu dedi:** “Bu saatlarda müştərilər çox olur. Ümumiyyətlə buraya gələnlər ya qəlyan, ya da siqaret çəkir. Biz onlara bunu qadağan edə bilmərik. Günorta saatlarında bir qədər sakitçilik olur. Yalnız saat 18:00-a qədər mümkün ola bilər. Həmin saatlarda gəlsəniz bəlkə yer taparıq”.

Tütün məmulatlarının qapalı məkanlarda istifadə qadağasını onların nəzərinə çatdırsaq da, “bura Azərbaycandır” deyib, bizi yola saldılar.

Növbəti baş çəkdiyimiz məkan **“Art Garden”** restoranı oldu. Burada fərqli vəziyyətin şahidi olduq. Bu məkan bir böyük zaldan və bir neçə kiçik otaqdan ibarətdir. Ərazidə olduğumuz zaman restoranda əyləşən müştərilərin siqaret və yaxud qəlyan çəkdiyini müşahidə etmədik. Restorana məsul şəxs tütün məmulatlarının qadağasından sonra xüsusi yerlər ayrıldığını bildirdi: “Bizim restoran ailəvidir. Böyük zalda ümumiyyətlə siqaret və yaxud qəlyan çəkilmir. Lakin bunun üçün xüsusi otaqlarımız mövcuddur ki, orada qəlyan və siqaret çəkməyə icazə var”.

“İçərişəhər”də bir neçə kafeyə də baş çəkdik. **“Təndir”** adlanan kafenin işçiləri də yeni qadağalardan xəbərdar olduqlarını bildirdilər: “Əvvəllər kafedə tütündən istifadə edilib. Lakin yeni qadağalardan sonra müştərinin siqaret çəkməsinə icazə vermirik. Çünki bilirik ki, bunun üçün cərimələnə bilərik. Səhv etmirəmsə, qanunda 400 manat nəzərdə tutulub”.

Kiçik araşdırmamızdan sonra belə qənaətə gəldik ki, bəzi restoran sahibləri qadağalara məhəl qoymayaraq insanları qapalı məkanlarda tütün tüstüsündə boğurlar...

**Deputat Zahid Oruc** tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılmasına belə münasibət bildirdi: “Bu tələblərə əməl etmək insanların öz sağlamlığına, qanunlara, ictimai mədəniyyətə olan münasibəti kimi başa düşülür. Ancaq burada dərhal günahlandırma tərəfində deyiləm. Çünki bu praktika bizdə yeni formalaşmağa başlayıb. Qanunvericilik aktında həmin məsələlər müzakirə olunanda parlamentdə belə ehtimallar çox irəli sürülüb”.

**Z.Oruc qadağalara riayət edilməsi üçün müəyyən zamana ehtiyac olduğunu və bunu bir mədəniyyət hadisəsi kimi formalaşdırmağın vacibliyini vurğuladı:**

“Nə üçün azərbaycanlılar misal üçün Almaniyada, Belçikada qeyd etdiyiniz məkanlarda siqareti çəkməyə cəhd göstərmirlər?

Təkcə ona görə yox ki, cərimələr həddindən artıq bahadır. Düşünürəm ki, hər kəs həmin yerin ictimai qaydasına uyğun hərəkət edir. Qanunlar çox pozulduğu halda adamlar hesab edir ki, onu gözləmədən də keçmək olar. Belə bir şəraitdə biz siqaretin coğrafi meydanının daraldılması uğrunda mübarizəyə başlamışıq. Bunu bir milli məsələyə çevirmək çox çətin olacaq. Siqaret onlara kömək edir, hansısa dərdlərini unutdurur, məişət, sosial-ictimai qayğılarının keçməyinə kömək edir və sairə. Yəni onlarda belə bir anlayış var. Ona görə də təbliğati işlərimizi bu yöndə güclü şəkildə aparmalıyıq. Bu məsələdə medianın rolu da xüsusi vacibdir. Mən özüm də bu cür məkanlarda olan zaman siqaret çəkən şəxsə öz iradımı insani dillə çatdırmağa çalışıram. Reaksiyalar isə müxtəlif olur. Həmin şəxs özünü könüllü göstərsə də, guya bunu qəbul elədi, amma mahiyyətdə müqavimət göstərir. Sanki onlar siqareti özlərinin oksigen balonuna çeviriblər və həyatlarının ayrılmaz bir hissəsidir".







❑ **Məğrur MƏRD**
**Fotolar müəllifindir**

**Yanvar ayının 1-dən etibarən Azərbaycana idxal edilən minik avtomobillərinə tətbiq edilən idxal gömrük rüsumu artıb. Bu, Nazirlər Kabinetinin 17 noyabr 2017-ci il tarixli qərarı ilə təsdiq edilən "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə əksini tapıb.**

# Maşın bazarında kəskin bahalaşma gözlənilir

## Yeni gömrük rüsumları bütün növ avtomobillərin qiymətinə təsir edəcək

Yeni qərara əsasən, mühərrikinin silindrlərinin işlək hissəsinin həcmi 1500-1800 və 1800-3000 kubsantimetr arası olan təzə minik avtomobilləri üçün rüsum hər kubsantimetrinə görə 0,70 dollar, istismar olunmuş avtomobillər üçün isə 1,2 dollar olacaq.

Bundan öncə isə bu rüsumlar müvafiq olaraq 0,40 və 0,70 dollar idi.

Mühərrikinin silindrlərinin işlək hissəsinin həcmi 1000-1500 kubsantimetr arası olan avtomobillər üçün isə rüsum dəyişməyib. Bu kateqoriyalarda olan təzə minik avtomobilləri üçün gömrük rüsumu 0,40 dollar, işlənmiş avtomobillər üçün isə 0,70 dollar sabit qalıb.

*Bəs görəsən bu yeni gömrük rüsumları avtomobillərin qiymətinə necə təsir edəcək? Avtomobil bazarında vəziyyət necə dəyişəcək?*

"Yeni Müsavat"a açıqlamasında mövzunu şərh edən **iqtisadçı ekspert Natiq Cəfərli** bildirdi ki, yeni gömrük rüsumları bütün növ avtomobillərin qiymətinə təsir edəcək: "Azərbaycana ən çox gətirilən avtomobillər mühərrik həcmi 1.6 kubmetrdən yüksək olan avtomobillərdir. Bu qərar onların hamısının qiymətinə təsir edəcək. Həm yeni, həm də köhnə avtomobillər bahalaşacaq. Gömrük rüsumlarında təxminən 80 faizə yaxın artım müşahidə olunur. Bu qiymətlərə təxminən avtomobilin mühərrik həcmindən asılı olaraq qiymətlərin 1500-5000 manat arasında yüksəlməsinə gətirib çıxaracaq. Mühərrikinin həcmi daha yüksək olan lüks avtomobillər də var ki, onların qiymətinə təsiri daha çox olacaq. Lakin bu avtomobillər bazar seqmentində çox az yer tutduğu üçün, qiymətlərin əsasən 1500-5000 manat arasında bahalaşması gözlənilir. Bu da bazarda bahalaşmaya gətirib çıxaracaq. Ancaq Azərbaycanda maraqlı bir situasiya yaranıb ki, qiymətlər arsa da, alıcılıq azdır, müştəri qıtlığı var. Bank kreditlərinin məhdudlaşdırılmasından və şərtlər çətinləşdikdən sonra avtomobil bazarında durğunluq müşahidə olunurdu. Bu qiymət artımı avtomobil bazarına daha ciddi zərbə olacaq. Qiymətlər qalxsa da, alıcı qıtlığı olacaq. Nə qədər ki, banklar normal fəaliyyətə başlamayıb, avtomobil kreditləri verilmir, o zamana qədər bazarda alıcılıq az olacaq".

**İqtisadçı hesab edir ki, əslində qərarın özü yanlış qərardır:** "Çünki Azərbaycan avtomobil istehsalçısı deyil. Heç olmasa köhnə avtomobillərin gömrük rüsumu qalxsa da, yeni avtomobillərin rüsumunu aşağı salmaq lazım idi ki, Azərbaycanın avtoparkı dəyişsin, ölkəyə daha yeni avtomobillər gətirilsin. Bu da ekologiyaya müsbət təsir edə bilərdi. Ancaq təəssüf ki, rüsumların artırılması qərarı yeni avtomobillərə də şamil olundu və onların da qiyməti qalxacaq. Paralel olaraq hökumət hibrid avtomobillərə və ya elektriklə işləyən avtomobillərə ciddi güzəştlər tətbiq etsəydi, heç olmasa ekoloji baxımdan müasir maşınların ölkəyə gətirilməsinə nail olmaq mümkün olardı. Hökumətin əsas məqsədi rüsumları artırmaqla ölkəyə



əlavə vəsait cəlb etmək idi. Ancaq ölkəyə gətirilən maşınların sayının azalması müşahidə olunacaq və bu il avtomobillərdən gömrük rüsumları vasitəsilə büdcəyə daxilolmalarda azalmalar müşahidə olunacaq. Qiymət artdıqca müştəri azalacaq, alıcı azaldıqca tələb azalacaq və ölkəyə gətirilən avtomobillərin sayında ciddi enmə olacaq".

**İqtisadçı ekspert Ramil Osmanlı** da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, yeni qəbul olunan qanun büdcə daxilolmalarını artırmaq məqsədi daşısa da, əks effekt verə bilər: "Aksiz vergisi avtomobilin gömrük rəsmiləşməsində əsas yük daşıyan vergilərdən biridir. Bu baxımdan avtomobillərin qiymətinin artmasına təsir göstərən əsas amillərdən biri hesab olunur. ƏDV əgər sadəcə avtomobilin xaricdən alış qiymətinə tətbiq olunursa, aksiz vergisi avtomobilin real bazar dəyərinə tətbiq olunur. Ona görə də bahalaşmaya səbəb olacaq, ancaq büdcə daxilolmalarının nə qədər artacağı ciddi müzakirə mövzusudur. Bu cür qərarlar idxalı azaldır, ölkədə avtomobilləşmənin qarşısını alır".

*Maraqlı məqamlardan biri də odur ki, avtombillərin idxal üçün gömrük rüsumları aşağı olduğu vaxtlarda da idxalçılar təxminən indiki qədər vəsait ödəməli olurdular. Kiçik bir hissəsi rəsmi şəkildə dövlət büdcəsinə, önəmli hissəsi isə qeyri-rəsmi şəkildə ayrı-ayrı məmurların cibinə axırdı. Bəs görəsən, yeni gömrük rüsumlarının tətbiqi idxal prosesindəki qeyri-rəsmi ödənişləri aradan qaldırarsa, bu qiymətlərin müəyyən qədər sabit qalmasına gətirib çıxara bilərmi? Yəni, bu qərarı gömrükdə mövcud olan qeyri-rəsmi ödəniş məbləğinin rəsmiləşdirilməsi və büdcəyə yönləndirilməsi kimi qəbul etmək olarmı?*

Bu sualı cavablandıran Ramil Osmanlı bu qərarın qeyri-rəsmi ödənişləri aradan qaldıracağına ümid etdiyini vurğuladı: "Qeyri-rəsmi ödənişlərin büdcəyə yönəldilməsi bir sıra sahələrdə həyata keçirildi. Məsələn, bir neçə il əvvəl xarici pasportu qısa müddətdə, məsələn 3 günə almaq üçün vətəndaşlar məmurlara rüşvət verməli idilər. Sonradan belə nəticəyə gəlindi ki, bunu rəsmiləşdirmək daha yaxşı olar. Artıq rəqəmlər kimlərinsə cibinə yox, dövlət büdcəsinə daxil olsun. Kimsə 3 günə pasport almaq istəyirsə, rüşvət olaraq verdiyi pulu rəsmi qaydada büdcəyə ödəyir və tez də alır. Daşınmaz əmlakın qeydiyyatında və digər sahələrdə də həmçinin. Hesab edirəm ki, aksiz vergisinin artması da avtomobil idxalı ilə bağlı gömrükdəki qeyri-rəsmi ödənişləri aradan qaldıracaqsa, bu müsbət bir haldır və bahalaşmanın qarşısını da müəyyən qədər alacaq. Hər halda ümid edək ki, qeyri-rəsmi ödənişlər aradan qalxacaq və yalnız rəsmi rüsumlar alınacaq".

❑ **Nərgiz LİFTİYEVA**

# Rusiya Azərbaycanda Türkiyə pomidoru axtarır

## **Mütəxəssis:** "Digər yerlərdən gətirilən pomidorlar Azərbaycanda yetişdirilənlərin dadını verə bilmir"

**Rusiyanın Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidmətinin nümayəndələri ötən ilin sonlarında yenidən Azərbaycana gəliblər. Səfərin məqsədi Azərbaycanda pomidorların becərilməsi və saxlanılması prosesini izləmək olub.**

Rusiya Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidmətinin bununla bağlı yaydığı məlumatda bildirildiyinə görə, bu səfərin təşkil olunmasının əsas səbəbi "2017-ci ildə Azərbaycandan Rusiyaya ixrac olunan pomidorun həcminin artması"dır. Belə ki, Rusiya tərəfi artımın yerli istehsal deyil, Türkiyədən pomidorun reeksportu hesabına baş verməsindən şübhələnirlər. Daha doğrusu, Rusiyada hesab edirlər ki, azərbaycanlı sahibkarlar Türkiyədən pomidoru alaraq, öz məhsulları kimi Rusiyaya satırlar.

Xatırladaq ki, Rusiya-Türkiyə münasibətlərinin gərginləşməsi üzündən rəsmi Moskva Türkiyə pomidorunun öz ərazisinə idxalına qadağa qoymuşdu. Qadağa qüvvədə olduğu dövrdə Azərbaycandan pomidor idxalındakı kəskin artım Rusiya tərəfində şübhələrin yaranmasına səbəb olmuşdu. Bir neçə dəfə Azərbaycandan aparılan böyük həcmdə məhsul məhz Türkiyə pomidoru olması iddiası ilə geri qaytarılıb.

*Maraqlıdır ki, Rusiya tərəfi Türkiyə pomidorunun idxalına qoyduğu qadağanı bir neçə ay əvvəl ləğv edib. Bu halda yenidən Azərbaycandan ixracın yüksək olması nədən Rusiyada inanılmaz hesab olunur? Bu ölkədən gələn nümayəndələr Azərbaycanda hansı ərazilərə baxış keçiriblər?*

Suallarımıza cavab verən **Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının rəhbəri Bəşir Quliyev** Rusiya tərəfinin şübhələrinin əsassız olduğunu bildirdi: "Türkiyədən pomidor idxalına birdəfəlik rüsum tətbiq olunur. Bu rüsum hər kiloqram üçün 60 sentdir. Bu şəraitdə Türkiyədən mal gətirib onu yenidən Rusiyaya ixrac etmək iqtisadi baxımdan səmərəli deyil. Buna görə də onların iddiaları tamamilə əsassızdır. Düzdür, yay vaxtlarında biz belə faktların olduğunu öyrənmişdik. Amma indi bu, mümkün deyil, çünki gəlir əldə etmək imkanı yoxdur. Hazırda Türkiyə pomidoru Avropa bazarında 1,7 avroya satılır. Bu halda Azərbaycana hətta 1,7 avroya belə idxal edildikdə, gömrük rüsumu ilə birlikdə kiloqramı 2,3 avroya gəlib çıxacaq. Bunu yenidən rüsum ödəyib Rusiyaya apardıqda, qiymət gəlib 4-5 avroya çıxacaq. Orada belə qiymətə pomidoru kim alacaq ki?"

**B.Quliyevin sözlərinə görə, Rusiya Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidmətinin nümayəndələri Azərbaycana ötən ildən başlanan proses çərçivəsində monitorinq üçün gəliblər:** "Onlar bir ildir mütəmadi olaraq gəlib-gedirlər. Bu dəfə Binə, Zirə, Məhəmmədidəki təsərrüfatlara, saxlama yerlərinə baş çəkib getdilər".

**Qeyd edək ki, Bakıda istixanalarda yetişdirilən pomidor sortlarının daha dadlı olduğu deyilir. Bu baxımdan, onların Türkiyə pomidoru ilə qarışıq salınması mümkündürmü? Assosiasiya rəhbəri deyir ki, əslində dünyada pomidor sortlarını yetişdirən 10-12 iri şirkət var və hamı toxumluğu onlardan alır:** "Hər bir iş adamı bazar tələbinə, malı satdığı əraziyə uyğun olaraq hansı sortları becərəcəyini özü müəyyənləşdirir. Zirədəki iqlim şəraiti, torpağı, yetişdirmə ənənəsi elədir ki, orada yetişən pomidorun dadını heç biri verə bilmir. "Bakı pomidoru" xırda, yumru, tək-tək qırılan, qırmızı pomidorlardır. Onların arasında yüzlərlə sort var - bunlara "kokteyl sortu" deyilir. Həmin sortlardan 5-6-sı var ki, turşuluğuna, digər xüsusiyyətlərinə görə həmin dadı verir. Onlardan ən qədimi uzun illər boyu Zirədə becərilən "Durinta" sortudur. O sortu indi fəaliyyət göstərməyən bir Hollandiya şirkəti yaratmışdı. Zirədə "Durinta" elə dadlı alınırdı ki, heç bir yerdə elə dad əldə olunmur. Sonradan həmin şirkət "durinta"nın daha məhsuldar sortlarını yetişdirdi. Bakı pomidoru həmin sortlardır, sadəcə, becərilmə üsulu, iqlim şəraiti, suyu və sairə görə digər yerlərdə becərilən eyni sortlardan daha dadlı olur. Yəni nə Türkiyədən, nə də digər yerlərdən gətirilən pomidorlar Azərbaycanda yetişdirilənlərin dadını verə bilmir - iyinə, dadına, keyfiyyətinə görə".

**Son illərdə Azərbaycandan Rusiyaya pomidor ixracının artmasına gəlincə, B.Quliyev deyir ki, bu, yerli istehsalın sürətlə genişləndirilməsi ilə bağlıdır:** "Bir neçə il əvvəlki əkin sahələri, istixanalarla indiki arasında dəfələrlə fərq var. Bu sahəyə dövlət tərəfindən böyük dəstək var. Biz işə başlayanda 2-3 müasir istixana vardı. İndi istixanaların ucu-bucağı görünmür. Bir məhsul ki, rahat bazar tapa və yaxşı qiymətə satıla, onu daha çox istehsal etməmək olarmı?"

**İstehsal bu qədər artıbsa, niyə Azərbaycanın özündə pomidorun qiyməti yüksək olaraq qalır? Assosiasiya rəhbərinin sözlərinə görə, ixrac imkanları olan məhsulun yerli qiyməti xaricdəkindən ucuz olarsa, heç kim daxildə mal satmaz:** "Digər tərəfdən, istixana təsərrüfatlarının sayı ilə bərabər oradakı işçilərin peşəkarlıq səviyyəsi də artır. Vaxt var idi, biz Türkiyədən, Hollandiyadan mütəxəssis gətirirdik. İndi özümüzdə o qədər yüksək səviyyəli mütəxəssislər yetişib ki... Onlara peşəkarlıq səviyyələrinə uyğun əmək haqqı vermək lazım gəlir. Digər tərəfdən, istixanalarda müasir texnologiyalar, üsullardan istifadə olunur. Bunların hamısı qiymətə təsir göstərən amillərdir".



❑ **Dünya SAKİT**



## Professorun evindən oğurluq edən qadının cəzası 14 il icra olunmayacaq - səbəb...

**Yanvarın 5-də oğurluqda təqsirləndirilən 4 uşaq anasının məhkəməsi davam edib. Hakim qarşısına çıxarılan qadın Bakı Dövlət Universitetinin (BDU) professorunun evindən oğurluqda ittiham edilir.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində oğurluqda təqsirləndirilən 1989-cu il təvəllüdlü Mehriban Quliyevanın cinayət işi üzrə məhkəmə prosesinə hakim Faiq Qəniyev sədrlik edib.

Hakim elan edib ki, məhkəmə prosesinin bu günə qədər uzanmasının səbəbi M.Quliyevanın 5-ci dəfə ana olmasıdır. M.Quliyeva 2017-ci il dekabrın 30-da 5-ci övladını dünyaya gətirib. Həmçinin M.Quliyevanın hamiləlikdən əvvəl də xəstəlikdən müalicə aldığı məhkəmədə elan edilib.

Məhkəmə M.Quliyevaya son söz verib. O, əməlindən peşman olduğunu, bağışlanmasını istəyib.

"Oğurladığımı qaytarmışam. Əməlimdən də peşmanam. Xahiş edirəm ki, məni bağışlasınlar"- deyə M.Quliyeva son sözündə deyib.

Məhkəmə qərar qəbul etmək üçün müşavirəyə gedib.

Hökmə əsasən qanunda edilmiş dəyişikliyə əsasən M.Quliyevaya Cinayət Məcəlləsinin 177.3.2-ci maddəsinin ikinci hissəsi ilə cəza təyin edilib.

Məhkəmənin hökmü ilə M.Quliyeva 4 il azadlıqdan məhrum edilib.

Onun barəsində Cinayət Məcəlləsinin 79-cu maddəsi tətbiq edilməklə yeni doğulan övladı 14 yaşına çatana qədər hökmün icrası təxirə salınıb.

Prokuror M.Quliyevanın 8 il müddətinə azadlıqdan məhrum edilməsini və həbs edilməsini istəmişdi.

Zərərçəkmiş professor isə M.Quliyevaya daha ağır cəza istəyib.

Qeyd edək ki, Mehriban Quliyeva Cinayət Məcəlləsinin 177.3.2-ci (oğurluq) maddəsi ilə təqsirli bilinir. O, qulluqçu işlədiyi mənzildən oğurluq etməkdə şübhəli bilinib.

İstintaq dövründə 4 uşaq anası olan M.Quliyeva 5-ci uşağına da hamilə olub. Övladlarının kiçiyinin 3, böyüyünün isə 9 yaşı var. Məhkəmə dövründə onun barəsində həbs qətimkan tədbiri seçilməyib.

İşlədiyi evdən oğurluq etdiyini etiraf edən M.Quliyeva məbləğin şişirdildiyini söyləyirdi.

**Bildirək ki, mənzilindən oğurluq edilən Aidə İbrahimova BDU-nun professorudur. İttihama görə onun mənzilindən 41 min manat oğurlanıb. M.Quliyeva 7 min manatı istintaq dövründə ödəyib. M.Quliyeva evdən 41 min yox, 7 min oğurladığını deyir.**

❑ **İlkin MURADOV**

## Bakıda dəm qazı 22 yaşlı oğlanı öldürdü

**Bakıda dəm qazı daha bir nəfərin həyatına son qoyub. APA-nın məlumatına görə, paytaxtın Səbail rayonunda yaşayan 22 yaşlı Məhəmməd Daşdıyev yaşadığı evdə dəm qazından boğularaq ölüb.**

Faktla bağlı araşdırma aparılır.

## Abşeronda tapança satmaq istəyən şəxs tutuldu

**Abşeronda tapança satmaq istəyən şəxs tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, Abşeron Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Zahid Abdullayev Masazır qəsəbəsi ərazisində nömrəsi silinmiş "Naqan" markalı tapançanı 250 manata satmaq istəyərkən saxlanılıb.**

# Rza Zərrabla bağlı kritik iddia: hələ də istintaqa işləyir

## Hakan Atilla Rza Zərrabın çəkməli olduğu cəzanı çəkəcək?..

**"HalkBank"ın (Türkiyə) keçmiş müdir müavini Hakan Atillanın İrana yönəlik embarqonun pozması ilə bağlı Amerikada davam edən məhkəmə hələ də Türkiyə gündəminin əsas mövzularından biridir. "Yeni Müsavat" xatırladır ki, H.Atilla barədə qərar 11 apreldə açıqlanacaq və ardınca apelyasiya proseduru başlanacaq.**



Amma prosesdə iş adamı Rza Zərraba veriləcək cəza ilə bağlı hər hansı tarixin açıqlanmaması ciddi suallar yaradıb. Onun hələ də istintaqa məlumat verməsi ilə bağlı versiyalar səsləndirilir.

Türkiyənin "Cumhuriyet" qəzetində yer alan xəbərə görə, Amerikadakı məhkəmənin 12 jüri üzvü prosesin tək ittiham olunan şəxsi Atillaya qarşı 6 ittihamdan 5-də təqsirli bilib. Qərarın açıqlanmasının ardınca Atilla üçün təxminən iki il davam edəcək apelyasiya müddəti də başlayıb. Atillanın vəkilləri hakim Riçard Bermanın 11 apreldə verəcəyi hökmü gözləyəcək. Hakim Atillanın yol verdiyi sabit cinayətlər əsasında cəza müəyyən edərkən şərtli azadlığa buraxılma məmuru tərəfindən onun barəsində hazırlanan sənədi və Atilla haqqında yazılan şəxsi məktubları da göz önündə saxlayacaq.

Adını verməmək istəməyən bir hüquqşünas isə hakim Bermanın açıqlayacağı qərarla bağlı hər hansı bir təxmin edilə bilmədiyini deyib: "Hər hansı bir zərər var, ya yoxdur, varsa miqdarı nə qədərdir, cinayətə hansı mərhələdə və nə ölçüdə müdaxilə olunduğu kimi məqamlar cəza miqdarını çox dəyişdirir".

Qərar açıqlandıqdan sonra medianın suallarını cavablandıran vəkillər Victor Rokko və Keti Fleminq isə məhkəmədə Atillanın "oynanılan qəribə bir oyunun qurbanı" olduğu fikrini müdafiə ediblər. Vəkil Rokko "Burada daha böyük bir şeylər baş verir, bunun ortasında qalan Atilla oldu. Bütün hallarda o, bir şəbəkənin nə memarı, nə də qurucusudur. Prokurorluq dəlillərinə görə, ona veriləcək ən pis rol isə funksional statusdakı bir şəxs olmasıdır. Gördüyümüz dəlillərin hamısı Zərrabla əlaqəli idi, Atilla ilə yox".

Prokuror Coon Kim isə qərar sonrası verilən yazılı açıqlamada aşağıdakıları deyib: "Cinayətlərini öncədən qəbul etmiş Rza Zərrabla birlikdə, İran investisiyalar rejimində milyard dollarlıq bir deşik açan bu nəhəng prosesin mərkəzində olan 2 nəfər indi ciddi federal cinayətlərdən məhkum edilibər. Xarici bank və bankçıların qarşısında iki variant var; ya İran və digər investisiyalara mövzu olan ölkələrin ABŞ qanunlarını pozmaq istəyən ölkələrə kömək edərsiniz, ya da ABŞ dolllar ilə işləyən beynəlxalq banklar sisteminin bir parçası olmağı seçərsiniz. Hər ikisini də seçməniz mümkün deyil".

"HalkBank" üçün də ABŞ-da hansı qərarın veriləcəyi, nə cür mövqe sərgilənəcəyi sual doğurur.

Özünə qarşı yönəldilən bütün ittihamları qəbul edərək, peşmanlıq haqqından istifadə edən R.Zarrabın məhkəmə prosesi üçünsə hər hansı bir tarix müəyyən edilməyib. Bu, sabiq ittiham olunan şəxsin yol verdiyi cinayətlər və cinayət ortaqlığı ilə bağlı hələ də prokurorluq orqanlarına məlumat vermə mərhələsində olduğu mənasına gəlir. Prosesi izləyən, amma adını açıqlamayan amerikalı bir müşahidəçiyə görə, Zərrabı verdiyi ifadələr çərçivəsində bir çoxunu məhkəmədə şahid kimi görmək mümkündür. Sahib olduğu məlumatları verməsi isə aylarla davam edə bilər.

Zərrabın yeni bir kimliklə sıfırdan bir həyata başlamasına imkan verəcək Şahid Qoruma Proqramına daxil edilib-edilməməsi ilə bağlı isə hələlik hər hansı məlumat yoxdur. Prokurorluqla edilən işbirliyi anlaşmasının məhkəməyə sirayət edən detallarında qeyd olunub ki, hökumət R.Zərrabın Şahid Qoruma Proqramı da daxil olmaq üzrə, onun müdafiəsi ilə bağlı bir çox addımları atmağı qəbul edib.

Rza Zərrab ifadəsində bildirmişdi ki, Atilla ondan heç vaxt rüşvət almayıb. Amma o, Atillanın İrana qoyulan investisiyalar barədə məlumatları ilə qurulan qeyri-qanuni sistemə qatqıları olduğunu vurğulamışdı.

Ancaq jürinin qərarında Zərrabın yox, ABŞ Maliyyə Nazirliyinə bağlı investisiyalara nəzarət ofisinin iki eks- direktorunun verdiyi ifadələrin daha təsirli ola biləcəyini düşünülür. Adam Szubin və eks CIA Direktor köməkçisi olmuş David Cohen, İran investisiyaları məsələsində "HalkBank" adına tez-tez ünsiyyət qurduqları şəxsin Atilla olduğunu bildirmişdi. Hətta Szubin bir az da qabağa gedərək, olduqca dəqiq xatırladığını dediyi özəl bir görüşü yada salıb, "HalkBank"ın bu qanun pozuntusuna getdiyinə görə narahatlıq keçirdiyini deyərkən Atillanın həyəcanlandığını və tərlədiyini söyləyib.

Sözügedən məhkəmədə adı çəkilən, amma ABŞ-da olmadıqları üçün məhkəməyə cəlb edilməyən digər şəxslərlə bağlı hansı qərarın veriləcəyi isə texniki detallardan daha çox, siyasi bir mövzu olaraq görülür. "Bu şəxslərin öz ölkələrində siyasi toxunulmazlıq sahibi olmaları burada ittiham olunmalarının qarşısını almaz, bunu keçmişdə gördük" deyən Kolumbiya Universiteti hüquq professorü Daniel Richman aşağıdakıları deyib: "Bir ölkə liderliyinə qədər yüksəldiyi zaman ABŞ prokurorluq ofisi və Xarici İşlər Nazirliyi arasında *(Dövlət Departamenti-red.)* milli mənfəətlərin müzakirə olunduğu məqamlar olur. Nyu-York Cənub Bölgəsi isə əllərindəki dəlilləri getdiyi yerə qədər aparmaları ilə tanınırlar".

**"Siyasi mənfəətin nəzərə alınması"na nümunə olaraq 2010-cu ildə Nyu-Cersi ştatında yaxalanan 10 nəfərlik rus casus qrupunun Rusiyadakı dörd məhbus qarşılığında ölkələrinə qaytarılmasını misal çəkən Richman onu da deyib ki, Nyu-York Cənub Bölgəsi Federal Məhkəməsinin baxdığı bir prosesdə cəzaların ləğvi ilə bağlı tez-tez müzakirələr aparılıb: "Nəticədə siyasi mənfəətlər nəzərə alınaraq proses ləğv edildi".**

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

# Balıq ovunun kvotası narazılıq doğurdu...

## Hafiz Hacıyev: "Dənizi zəbt edən oliqarxlar bu kvotalardan 3-4 dəfə çox balıq ovlayırlar, amma"

**Nazirlər Kabineti "2018-ci il üçün "Balıq və digər su bioresurslarının ovunun ümumi yol verilən miqdarı (kvota)" barədə qərar verib. Qərara görə, balıqçılıq su obyektlərində balıq və digər su bioresurslarının ovunun ümumi yol verilən miqdarının (kvota) aşağıdakı kvota növləri üzrə bölgüsü aşağıdakı kimidir:**

Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində balıq və digər su bioresurslarının sənaye ovu üçün kvotalar - 3455 ton;

Başqa balıqçılıq su obyektlərində balıq və digər su bioresurslarının sənaye ovu üçün kvotalar - 205,1 ton;

Elmi tədqiqat və nəzarət məqsədi ilə balıq və digər su bioresurslarının ovu üçün kvotalar - 13,2 ton;

Təhsil və maarifləndirmə məqsədi ilə balıq və digər su bioresurslarının ovu üçün kvotalar - 10,8 ton; akvakultura məqsədi ilə balıq və digər su bioresurslarının ovu üçün kvotalar - 28,2 ton.



Balıq və digər su bioresurslarının istifadəsi və mühafizəsi üzrə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənən su obyektlərində balıq və digər su bioresurslarının ovu üçün kvotalar bu əlavənin Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində balıq və digər su bioresurslarının sənaye ovu üçün kvotalara daxil edilib.

Əksər insanlar isə dənizdə balığın çox, nəzərdə tutulmuş bu kvotaların isə az olduğunu düşünür. Maraqlıdır, bu kvotanı artırmaq, balığın qiymətini ucuzlaşdırmaq mümkündürmü?

**"Azərbalıq" Dövlət Konserninin keçmiş müdiri Hafiz Hacıyev müəyyən edilmiş kvotaların Azərbaycan üçün minimum hədd olduğunu bildirdi:** "Azərbaycanda dənizi zəbt edən oliqarxlar bu kvotalardan 3-4 dəfə çox balıq ovlayırlar. Həmin balıqlardan gələn gəlir qeyri-qanuni yollarla müxtəlif vəzifəli insanların cibinə girir. Burada nəzərdə tutulan kvotalar ən aşağı həddir. Mən konsern rəhbəri işlədiyim dövrdə təkcə Türkiyəyə 654 ton assetrin, sevryuqa balığı satdıq. Bunun da kilosunu 6-8 dollar arasında satmışdıq. Bu gün Mərkəzi Bankdan həmin rəqəmlər çıxarıla bilər. Neçə milyonlarla Azərbaycanın dövlət büdcəsinə pul gəlmişdi. İndi nə oldu? Dəniz suyu qalxıb, axmazlar çoxalıb, bəs hanı balıqlar?! Bu gün əksər məmurlar balıq vətəgələri saxlayır. Xəzərin ətraf rayonlarında olan balıq zavodları hara getdi? Bunları araşdırmaq lazımdır. Hazırda açıqlanan kvotalar ən aşağı həddir. Mən həmişə demişəm ki, Xəzər dənizinin məhsulları hesabına Azərbaycanın büdcəsinə 6 aya kifayət qədər gəlir gətirmək olar. Bu balıq növləri hara gedib? Qanunsuz ov və gizli satış səbəbindən bu gün mağazalarda balığın kilosu 10-12 manata qalxıb, farel balığı 17 manat olub. Bəzi nərə sortları 80-100 manat arasında da satılır. Nərəyə insanlar həsrət qalıb. Mağazalarda, bazarlarda satılan balığın pulları hara gedir? Monitorinq keçirilsə, hər şey aydın olacaq. Bizim vaxtımızda oradan çıxarılan qara kürünün kilosu 110-130 dollar arasında idi. Bu da böyük rəqəm idi. Bu gün 1000-1200 dollardır. Büdcədə göstərilirmi ki, Azərbaycana Xəzər dənizindən gələn gəlir hara gedir?! İndi təyin etdikləri rəqəmlər bizim vaxtımızda kiçik bir zavodun rəqəmləri idi. Astarxanda Volqa çayında hər il bizə 200-300 ton nərə balığı tutmağa icazə verirlər. Ona görə ki, Rusiya gəmiləri Azərbaycanın sərhədlərində üzəndə biz onları su, müəyyən yeməklərlə təmin edirik. Onlar da onun əvəzində hələ o vaxt, yəni bizim hakimiyyətimiz dövründə 100 tonlarla balıq tutmağa icazə verirlər. Yenə də bu balıqlar tutulur, amma Bakıya gətirilmir, qanunsuz yollarla ovlanır və Volqa çayından da o tərəfə çıxıb gedir, həm balıqlar, həm də kürüsü. Burada çox böyük ədalətsizlik var. Xəzər dənizi ilə bağlı nəsə bir təşkilat yaradaq, Azərbaycanın dövlət büdcəsinin əhəmiyyətli hissəsini oradan təmin edə bilməsəm, məni assınlar".

**H.Hacıyev balığın əslində göstərilən kvotadan çox tutulduğunu, ancaq onların pulunun dövlət büdcəsinə getmədiyini dedi:** "Tutulan balıqlar qeyri-qanuni yolla hara gəldi satılır. Buna görə də bahadır. Oradan əldə olunan gəlirlər isə xüsusi insanların cibinə gedir. Əksər nazirlərin balıq vətəgələri var. Xəzər hövzəsi özəlləşməyə gedə bilməz. Bizim vaxtımızda balıqları sellofanlarda dondurub kilosunu indiki manat civarında hesablasaq, 2-4 manata satırdıq. İcazə vermirdik ki, kimsə bu balıqdan iki kilodan artıq alsın. Ona görə ki, alverçilər çox alıb, bazarlara çıxarırdılar. O vaxt biz kürünü də elə satırdıq. Bir nəfərə icazə vermirdik ki, 100 qramdan artıq kürü alsın. O vaxt Vaşinqtonda Azərbaycan kürüsünün təqdimatı mərasimi keçirilib. Həmçinin Azərbaycan kürüsünü, nərəni ABŞ-da təqdim etdik və dövlət büdcəsinə milyonlarla pul gəldi".

❑ **Günel MANAFLI**




# Limitə görə qaz sayğacları nə zaman sıfırlanır?

## İbrahim Kərbəlayev: "Elektron sayğaclarda 1700 kubmetr limit 1 yanvardan başlayaraq ilk ödəniş əməliyyatında tətbiq olunur"

**Hazırda əhalini narahat edən məsələlərdən biri də yeni ilin ilk günündən etibarən təbii qazın istehlakı ilə bağlı 1700 kubmetrlik limitin tətbiq olunmasıdır. Belə ki, Tarif Şurasının qərarına əsasən ötən ildən etibarən hər il əhaliyə satılan qazın 1700 kubmetri 10 qəpikdən, qalan hissəsi isə 20 qəpikdən hesablanmalıdır. Lakin bəzi abonentlərdən "Yeni Müsavat"a daxil olan şikayətə görə , yeni ildə smart karta yüklədikləri məbləğ 20 qəpikdən hesablanıb.**

*Bəs görəsən, yanvarın 1-dən etibarən yeni limitin tətbiq olunması hansı texnologiya aparılır və burada yaşanan problemlərin səbəbi nədir?*

"Yeni Müsavat"ın sualını cavablandıran **"Azəriqaz" İB-nin mətbuat xidmətinin rəhbəri İbrahim Kərbalayev** bildirdi ki, hazırda limitlərin sıfırlanması ilə bağlı heç bir problem yoxdur: "Ümumiyyətlə, abonentlərdə belə bir problem yaşanmır. Əgər kiminsə fərdi olaraq şikayəti varsa, bizə müraciət edib abonent kodunu, sayğacın nömrəsini göndərsə, araşdırıb ona tam dəqiq cavab verə bilərik. Tarif Şurasının 22 dekabr tarixli 19 nömrəli qərarına uyğun olaraq, 2017-ci ilin yanvar ayının 1-dən etibarən əhali qrupu üzrə istehlak olunan təbii qazın illik həcminin 1700 kubmetr olan hissəsinin dəyəri 10 qəpiklə, 1700 kubmetrdən artıq istifadə olunan hər kubmetr qazın dəyəri isə 20 qəpiklə hesablanır. Nəzərinizə çatdırıram ki, 2017-ci ildə olduğu kimi, 2018-ci ildə də yanvar ayının 1-dən etibarən əhali istehlakçıları üçün illik istehlak həcmi 1700 kubmetrə, yəni 170 manata qədəri 10 qəpik tarifi ilə, 1700 kubmetrdən artığı isə 20 qəpik tarifi ilə hesablanacaq".

**Limitlərin sıfırlanması texnologiyasına gəlincə, İbrahim Kərbalayev bildirdi ki, elektron tipli məişət qaz sayğaclarından istifadə edən əhali istehlakçıları üzrə 1700 kubmetr limit 1 yanvar 2018-ci il tarixdən başlayaraq, smartkartla aparılan ilk ödəniş əməliyyatından etibarən tətbiq olunur:** "Biz "Azəriqaz" İB olaraq bu haqda məlumat vermişik ki, əhali maariflənsin".

**İ.Kərbalayev onu da qeyd etdi ki, əhalinin istehlak etdiyi təbii qazın monitorinqi aparılıb və məlum olub ki, mexaniki qaz sayğacları ilə təmin olunan abonentlərin 20 faizi ayrılmış limiti keçib:** "Ona görə də, "Azəriqaz" İB istifadə olunmuş təbii qazın uçotunun aparılması və istehlakçıların məlumatlandırılması məqsədi ilə yenidən bildirir ki, dekabr ayının sonundan etibarən 2017-ci il üçün nəzərdə tutulmuş limit başa çatdırılıb, 2018-ci il üçün olan limitin hesablanmasına start verilib".

❑ **Nərgiz LİFTİYEVA**

# Yağış, qar yağacaq, külək güclənəcək

**Bakı və Abşeron yarımadasında yanvarın 6-da hava şəraitinin buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman, çiskin olacaq. Şimal-qərb küləyi əsəcək, gündüz arabir güclənəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, havanın temperaturunun Abşeron yarımadasında gecə 4-7, gündüz 8-11, Bakıda gecə 5-7, gündüz 9-11 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan yüksək 763 mm civə sütunundan 768 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında yanvarın 6-da bəzi yerlərdə çiskinli yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir, ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 2-7, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 5-10 dərəcə isti olacağı gözlənilir.

**Tibbi-meteoroloji proqnoza əsasən, yanvarın 8-dək Abşeron yarımadasının hava şəraitində mühüm dəyişiklik gözlənilmir. İqlim normasına yaxın temperatur rejimi, meteoroloji amillərin zəif və mülayim tərəddüdü meteohəssas insanlar üçün əsasən əlverişlidir.**



YENİ MÜSAVAT
Son səhifə
N 2 (6891) 6 yanvar 2018



# Dünyanın ən tüklü qızı ərə getdi

17 yaşlı Tayland sakini Supatra Susufan 2010-cu ildə Ginnesin Rekordlar Kitabına əsasən, "dünyanın ən tüklü qızı" elan edilib. O, artıq ərə gedib. Bu barədə lenta.ru saytı xəbər verib. Banqkokdan olan Suparta uşaqlıqdan bəri Abrams sindromundan əziyyət çəkir. Orta əsrlərdən bəri bu cür diaqnoz qoyulan cəmi 50 xəstə var idi. Bu simptomdan əziyyət çəkənlərdə ovuc və ayaq altından başqa hər yerdə tük çıxır. Uşaq vaxtı Susufan lazer epilyasiya etməyə cəhd göstərib. Amma bu, ona kömək etməyib. Müəyyən müddət o, üzündəki tüklərlə mübarizə aparmaqdan bezərək üzünü qırxmağa başlayıb. Əri ilə bağlı isə aşağıdakıları deyib: "O, təkcə mənim həyatımdakı birinci kişi deyil. Eyni zamanda bütün həyatımın məhəbbətidir".

Qızı məktəbdə oxuduğu vaxt hər zaman cırnadıb, "tüklü qız" çağırsalar da, Susufan kədərlənməməyə və optimizmini qorumağa çalışırdı. Ginnesin Rekordlar Kitabına müsahibəsində o, belə deyib: "Mən özümün digər insanlardan hər hansı bir fərqim olduğunu düşünmürəm, özümü də elə hiss etmirəm. Amma mənim tüklərim məni qeyri-adi edir".

# Qar fırtınasına kabrioleti ilə çıxdı

Amerikanın Minnesiot ştatı sakini qar fırtınası baş verən gün evindən qırmızı kabriolet maşını ilə çıxıb. Bununla bağlı çəkilən video artıq yayılıb. Video internetdə sürətlə yayılıb. Kadrlardan da görünür ki, üstüaçıq maşında sürücünün üstünə sürətlə qar tökülür, maşın qarlı yolda sürüşür, çətinliklə hərəkət edir, amma o, dayanmır. Hazırda Amerikanın şərqində güclü qar yağır. BBC News yazır ki, bu, atmosfer təzyiqinin qəfil düşməsi ilə bağlıdır. Bu da öz növbəsində fırtınalı küləyi ardınca gətirir. Siklon Amerikanın ərazisində həftənin sonuna qədər davam edəcək. İnsanlar bu müddət ərzində qar fırtınasından xeyli əziyyət çəkiblər. Ölkənin kontinental bölgəsində hava temperaturu -12.7 dərəcədir. Bundan daha ağır hava şəraiti Nyu-York və Bostonda gözlənilir. Artıq bu şəhərlərdə də qar yağışı başlanıb. Qar fırtınası eyni zamanda Kanadanın bir çox bölgələrində də özünü göstərəcək.



# Polisin səhər yeməyi insanları qəzəbləndirdi



Britaniya polisi səhər yeməyinin fotosunu Tvitter vasitəsilə paylaşandan sonra vegeterianlarda hiddət doğurub. Bu barədə "The Mirror" lenta.ru saytına istinadən xəbər verib. Daha sonra silmək məcburiyyətində qaldıqları fotoda çoxlu sayda sosiska, bekon, qızardılmış yumurta, qızardılmış göbələk, eləcə də şirniyyatla tost vardı. Cənubi Uels bölgəsi polis idarəsi cinayətkarlıqla mübarizə edir və zaman-zaman yerli əhalinin onları qonaq etdiyi süfrələrin fotosunu paylaşırlar.

Fotonun altındakı şərhlərdən birində isə Diana adlı qız yazıb ki, gördüyü mənzərə olduqca təhqiredicidir: "Mən xahiş edirəm ki, polislər bu sayaq şəkillərin altına siyasi cavablar yazmaq yerinə, ümumiyyətlə bu fotoları vegeterianlar üçün alçaldıcı olduğunu bilərək, onu silsinlər". Onun bu şərhinə bir çox vegeterianlar da dəstək verdilər. Bu qalmaqaldan sonra isə polislər yazılı açıqlama verdilər ki, bundan sonra Tvitterdən onları təqib edənlərlə hər hansı dialoqa girməyəcəklər, çünki bunun üçün asudə vaxtları yoxdur. Onlar bu statusa vegeterianlardan gələn təhqiredici şərhləri də screenlə əlavə ediblər.

# Qoroskop





**QOÇ** - Böyük işlər astanasındasınız. Artıq üzüntülü həyatınıza əlvida deməyə hazırlaşırsınız. Deməli, xırdaçılıqları bir kənara atıb daha qlobal, daha imanlı çalışmalısınız.


**BUĞA** - Günün ilk yarısında ovqatınızı qorumağa çalışın. Bunu bacarsanız, təxminən saat 14-dən sonra vəziyyəti xeyrinizə dəyişə biləcəksiniz. Aldığınız işgüzar təkliflərə biganə yanaşmayın.


**ƏKİZLƏR** - Yersiz risklərə lüzum yoxdur. Əks halda ciddi yanlışlığa yol verə, nəticədə isə gözdən düşə bilərsiniz. Ümumiyyətlə, bu gün təkbaşına hansısa işə girişməyiniz yolverilməzdir.


**XƏRÇƏNG** - Cılız düşüncəli insanların fikirlərini ciddiyə almayın. Yalnız öz təcrübə və potensialınıza uyğun addım atın. Maliyyə problemlərinizin həllini nahardan sonraya saxlayın.


**ŞİR** - Yalnız perspektivlərinizlə bağlı sövdələşmələrdə iştirakınız uğurlu ola bilər. Konkret işlərə isə girişməməlisiniz. Ulduzlar pul məsələlərində ehtiyatlı olmağı məsləhət görür.


**QIZ** - Başqalarının işinə qarışmasanız, ixtiyarınızda olan bu təqvimdən razı qalacaqsınız. Neçə vaxtdan bəri planlaşdırdığınız işləri, nəhayət ki, reallığa yaxınlaşdıra biləcəksiniz.


**TƏRƏZİ** - Ola bilsin ki, yeni iş təklifləri alasınız. Əgər belə bir şans yaransa imtina etməyin. Göy qübbəsi sağlıq durumunuzda xırda narahatçılıqların olacağını da istisna etmir.


**ƏQRƏB** - Şəxsi işlərinizdə önəmli rol oynaya biləcək insanları arayıb-axtarın. Əks halda mövqeləriniz zəifləyəcək. Nahar ərəfəsində mübahisələrdən yayının ki, enerjiniz azalmasın.


**OXATAN** - Fəaliyyət zəminində öz məsuliyyətinizi hiss edin. Xüsusən də rəhbərliyin əsəbini qabarda bilən işlər görməyin. Nahardan sonra şəxsi büdcənizdə müsbət dəyişiklıklər də mümkündür.


**OĞLAQ** - İştirakçısı olduğunuz hər bir prosesi yaxşı-yaxşı analiz edin. Bu, sonrakı vəziyyətinizə də təsir göstərəcək. Siyasi mübahisələrə, şit əyləncələrə və uzaq səfərlərə "yox" deyin.


**SUTÖKƏN** - Əsas gücünüzü nitq mədəniyyətinə yönəldin. Elə davranın ki, hər sözünüz, hər ifadəniz müsahiblərinizə yalnız xoş təsir bağışlasın. Sevgi barədə isə Füzuli qədər söz sərrafı olun.


**BALIQLAR** - Bütün enerjinizi işgüzar müstəviyə yönəldin. Çünki bu barədə həftənin ən düşərli gününü yaşayacaqsınız. Təcrübəli adamlardan məsləhət alın ki, səhvlər buraxmayasınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 21 illik ömründə ilk dəfə meyvə yedi



Britaniyanın Portsut şəhər sakini 3 yaşından bəri fast-food məhsulları ilə qidalansa da, 21 yaşında öz adətini dəyişib. Lenta.ru saytının verdiyi xəbərə görə, 21 yaşlı Corci Skotni bəzi qida məhsullarını yeyə bilməməkdən əziyyət çəkirdi. Onun dietası bəzi məhdud yeməklərdən ibarət idi. Ona görə də qızda ona naməlum olan yeməklərlə bağlı ciddi qorxu yaranıb. Bir neçə il Skotni ancaq çörək, çips və KFC firmasından olan toyuq, şokolad, şirniyyatlarla qidalanıb. Mütəmadi olaraq idmanla məşğul olmasına baxmayaraq, qız qida rasionuna görə ağır çəkidən əziyyət çəkib. Mədə genişlənməsi yaşayan qızcığaz nəhayət hipnoz seanslarına qatılıb. Bu seanslar isə onu naməlum yemək qorxusundan azad edib: "Hər şey dəyişdi. Mən bu günə qədər dadmadığım yeni qidalar yeməyə başladım. Mən 15 ildir ki, ingilis səhər yeməyini arzulayırdım. Ancaq indi onun zövqünə vara bildim".

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100